# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

## Azərbaycan MAMA "Ana təbiət" sərgisi ilə ilk dəfə London Dizayn Biennalesində



4

# Kahramanmaraşda qardaşlıq abidəsi!



2

Prezident İlham Əliyev: "Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk"

SƏS

№ 106 (7274)

20 iyun 2025-ci il.
Qiymәti 60 qәpik

# Ərzaq təhlükəsizliyi: Problemlər, nailiyyətlər, perspektivlər



8

### Dövlət və cəmiyyətin inkişafı naminə siyasi əməkdaşlıq



4

### Qürurlu xalqın qəhrəman oğlu - MÜBARİZ İBRAHİMOV



6

### Qəbul imtahanları: maksimal balın əhəmiyyəti varmı?



15

### Serial çəkmək, yoxsa serialdan pul çəkmək?



12

### SOS: İnformasiya zombifikasiyası



9

# Kahramanmaraşda qardaşlıq abidəsi!

## Prezident İlham Əliyev: "Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk"

***Dünən Türkiyənin Kahramanmaraş şəhərində "Azərbaycan" məhəlləsinin açılış mərasimi keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbirdə iştirak ediblər. Mərasimdə Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib. Sonra "Azərbaycan" məhəlləsinə həsr edilmiş videoçarx nümayiş etdirilib. Daha sonra Azərbaycan və Türkiyə prezidentləri tədbirdə çıxış ediblər. Türkiyə Prezidenti öz çıxışında qeyd edib ki, "Tale bizə Azərbaycan torpaqlarının 30 illik işğaldan azad edilməsinin şahidi olmaq imkanı verdi. Bu gün Prezident İlham Əliyevin komandanlığı ilə işğaldan azad edilən Qarabağın hər bir guşəsi vahid tikinti-bərpa meydançasının tərkib hissəsidir."***

Türkiyə lideri xatırladıb ki, o, mayın 28-də Azərbaycanın Müstəqillik Günündə Laçında olub. Füzuli və Zəngilanın ardınca orada beynəlxalq hava limanı açılıb. "Qardaşım İlham Əliyevlə birlikdə yeni hava limanının açılışında iştirak etdik", - deyə Ərdoğan bildirib. Türkiyə Prezidenti ümidvar olduğunu bildirib ki, Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması regionun inkişafı və bərpası istiqamətində səylərə yeni impuls verəcək.




"Kahramanmaraşdakı "Azərbaycan" məhəlləsi xalqlarımızın talelərinin ayrılmazlığının göstəricisi olan "Bir millət, iki dövlət" kəlamının həyata keçirilməsinin daha bir nümunəsidir. Bu gün biz Türkiyə və Azərbaycanın həmrəyliyinin, birliyinin sarsılmazlığını bir daha dünyaya nümayiş etdiririk."

Prezident xatırladıb ki, 2023-cü ilin fevralında baş vermiş dağıdıcı zəlzələlərin fəsadları ilə üzləşən Türkiyəyə yardıma ilk gələnlərdən biri də Azərbaycan olub.

"Azərbaycan xalqının həmrəyliyini və dəstəyini heç vaxt unutmayacağıq. Türkiyə xalqına kömək əlini uzatdıqları üçün Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya xüsusi minnətdarlığımı bildirmək istəyirəm", - deyən Prezident Ərdoğan Kahramanmaraşın "Azərbaycan" məhəlləsini təbii fəlakət bölgəsinin bərpasının qürur mənbəyi adlandırıb. Türkiyə lideri, həmçinin Kahramanmaraşda yeni yaşayış kompleksi layihəsinin həyata keçirilməsinə görə Azərbaycanın Mənzil İnşaatı Dövlət Agentliyinə (MİDA) və Türkiyənin Mənzil İnşaatı Dövlət İdarəsinə (TOKİ) təşəkkür edib.




### *İlham Əliyev:*
### *"Türkiyə və Azərbaycan bir-birinin yanında inamla, uğurla irəliləyir"*

"Biz yaxşı günlərdə də, ağır günlərdə də daim bir-birimizin yanındayıq, bir-birimizin gücünü artırırıq və bu gün Türkiyə-Azərbaycan qardaşlığı, birliyi nəinki bölgəmiz üçün, dünya çapında önəmli faktordur."

Bu fikirləri Prezident İlham Əliyev Türkiyənin Kahramanmaraş şəhərində "Azərbaycan" məhəlləsinin açılış mərasimində çıxışında səsləndirib. "Dörd il bundan əvvəl hörmətli Cümhurbaşqanı ilə Şuşa şəhərində imzaladığımız Şuşa Bəyannaməsi bizim münasibətlərimizi ən yüksək zirvəyə qaldırmışdır. Şuşa Bəyannaməsi bizim münasibətlərimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır. Biz dostuq, qardaşıq, müttəfiqik, həm siyasi, həm iqtisadi, həm enerji, nəqliyyat, hərbi və bütün başqa sahələrdə Türkiyə və Azərbaycan iki qardaş ölkə bir-birinin yanında inamla uğurla irəliləyir."

### *Rəcəb Tayyib Ərdoğan:*
### *"Kahramanmaraşdakı "Azərbaycan" məhəlləsi Türkiyə və Azərbaycanın həmrəyliyinin, birliyinin nümunəsidir"*

Bəli, sarsılmaz dostluq və qardaşlığa söykənən və uğurla davam etdirilən Azərbaycan-Türkiyə əlaqələri qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulub. Mövcud münasibətlərin hərtərəfli inkişafı baxımından, həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır və dövlətlər arasındakı dostluq-qardaşlıq münasibətləri dünya üçün nümunəyə çevrilib. Dostluq və qardaşlığa söykənən Azərbaycan Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Bu münasibətlərin geniş vüsət alması müstəqilliyimizin bərpasından sonrakı dövrə təsadüf edir. Türkiyə və Azərbaycan xalqlarının Ulu Öndərləri Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamları xalqlarımızın çoxəsrlik qardaşlıq əlaqələrinə verilən ən yüksək qiymətdir. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətdə qayıdışından sonra dövlətlərarası əlaqələrin artmasına, əməkdaşlığın genişlənməsinə xüsusi diqqət yetirilmişdir. Ulu Öndər Heydər Əliyevin dövlətlərarası yaratdığı qardaşlıq münasibətləri bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir. Azərbaycanla Türkiyə arasında uğurla inkişaf edən münasibətlər regionun sülh, sabitlik və əməkdaşlıq məkanına çevrilməsində mühüm rol oynayır. Ölkələrimizin siyasi-iqtisadi əlaqələri tarixi-mədəni qardaşlıq prinsipinə əsaslanan, strateji tərəfdaşlığa söykənən münasibətlər sistemini əhatə edir.

### DOSTLUQ VƏ HƏMRƏYLİYİN ƏYANİ NÜMUNƏSİ - "AZƏRBAYCAN" MƏHƏLLƏSİ

2023-cü ilin fevralında Türkiyənin cənub-şərqində baş verən və "əsrin faciəsi" adlandırılan dəhşətli zəlzələdən dərhal sonra Azərbaycan dövləti və xalqı qardaş ölkənin yanında oldu. Prezident İlham Əliyevin göstərişi ilə Azərbaycan Fövqəladə Hallar Nazirliyinin xilasediciləri, həkimlər və könüllülər zərərçəkən ərazilərə ezam olundular, humanitar yardımlar göndərildi. 5373 tonluq humanitar yardımın tərkibində 9183 çadır, 145 konteyner tipli mobil ev, səhra hospitalı, səhra mətbəxi, generatorlar və digər həyati əhəmiyyətli ləvazimatlar yer aldı. Azərbaycan xilasediciləri dağıntılar altından 53 nəfəri sağ çıxardı, 780 nəfərin cəsədini tapdı, ümumilikdə 3123 nəfərə tibbi yardım göstərildi. Bu yardımların ümumi maliyyə dəyəri 31 milyon 510 min 900 ABŞ dolları (53 milyon 568 min 530 AZN) təşkil etdi.

Ardı Səh. 3



# Kahramanmaraşda qardaşlıq abidəsi!

## Prezident İlham Əliyev: "Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk"



Əvvəli Səh. 2

Həmçinin 13 milyon 397 min 883 ABŞ dolları (22 milyon 776 min 400 AZN) birbaşa maliyyə yardımı şəklində təqdim olundu. Bu dəstək yalnız təcili yardım səviyyəsində qalmaqla kifayətlənmədi. Prezident İlham Əliyevin xüsusi tapşırığı ilə Azərbaycanın qardaş ölkəyə uzunmüddətli dəstəyi üçün Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin inşasına start verildi. Məhəllənin tikintisinə 100 milyon ABŞ dolları (170 milyon AZN) vəsait ayrıldı və tikinti işləri Azərbaycanın Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən həyata keçirildi. 27,6 hektarlıq ərazini əhatə edən məhəllədə 1194 mənzildən ibarət 68 yaşayış binası, Heydər Əliyev adına ibtidai məktəb, uşaq bağçası, mədəniyyət mərkəzi və digər sosial obyektlər inşa olunub. Həmçinin burada məskunlaşacaq ailələr üçün 1595 ticarət obyekti də yaradılıb. Layihənin əlamətdar məqamlarından biri 2023-cü ilin aprelin 29-da keçirilən TEKNOFEST festivalı çərçivəsində Heydər Əliyev adına məktəbin və uşaq bağçasının təməl-



qoyma mərasimi oldu. Bu mərasimə Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan videokonfrans vasitəsilə qatıldılar. Daha sonra, 2023-cü ilin sentyabrında Naxçıvanda iki ölkə arasında bu layihəyə dair Əməkdaşlıq Sazişi imzalandı. Nəticədə 2024-cü ilin sentyabrında Heydər Əliyev adına ibtidai məktəb və uşaq bağçasının açılışı baş tutdu. Məktəb tədrisin və uşaqların fərdi inkişafının yüksək səviyyədə təşkili üçün bütün zəruri avadanlıq və tədris materialları ilə təmin edilib.

Kahramanmaraşda ucaldılan Azərbaycan-Türkiyə dostluq abidəsi isə bu sarsılmaz qardaşlığın rəmzinə çevrilib. Sözügedən layihə təkcə bir tikinti layihəsi deyil, eyni zamanda, Azərbaycan və Türkiyə qardaşlığının, ağır günlərdə bir-birinə dayaq olmağın, dostluq və həmrəyliyin əyani nümunəsidir. "Azərbaycan" məhəlləsi iki ölkə arasında humanitar həmrəyliyin və strateji tərəfdaşlığın gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycan - Türkiyə dostluğu, qardaşlığı möhkəm təmələ əsaslanır. Bu birlik, ümumilikdə Türk dünyasının birliyinə böyük töhfə və çağırışdır. Dünyaya nümunə olan Azərbaycan-Türkiyə birliyi tarixin bütün sınaqlarından şərəflə çıxıb, hər iki dost ölkə daim biri-birinin yanında olub və yanındadır. Dövlət başçısı İlham Əliyev daim çıxışlarında qardaş ölkənin 44 günlük İkinci Qarabağ müharibəsinin başlandığı andan sonadək Azərbaycan xalqının yanında olduğunu böyük qürur hissi ilə qeyd etmişdir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dünyaya "Azərbaycan tək deyil" mesajı, sonadək mənəvi və siyasi dəstəyini göstərməsi Azərbaycana güc verdi.

### "ŞUŞADA DALĞALANAN AZƏRBAYCAN VƏ TÜRKİYƏ BAYRAQLARI BİZİM BİRLİYİMİZİ GÖSTƏRİR"

2020-ci il sentyabrın 27-də işğalçı Ermənistanın növbəti hərbi təxribatları ilə başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsində Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla qardaş dövlətin, onun hökumətinin və xalqının Azərbaycana göstərdiyi siyasi-mənəvi dəstək yalnız işğal altındakı torpaqlarımızın azadlığının deyil, eyni zamanda, Türkiyənin qətiyyətli mövqeyinin təzahürüdür. Vətən müharibəsində qələbəmizdən sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfərləri qardaşlıq, dostluq mesajının daha bir təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Bizi birləşdirən bir çox amillər var, ilk növbədə, tarix, mədəniyyət, ortaq etnik köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, xalqlarımızın qardaşlığı bu birliyi təmin edib. Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk". Bu birliyin və qardaşlığın sarsılmaz nümunəsinin Vətən müharibəsində bir daha şahidi olduq. "Biz Azərbaycanın yanındayıq. Hadisələrə müdaxilə edənlər öndə bizi görəcəklər!", - söyləyən Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan əsl qardaşlıq nümunəsi göstərdi. Bu müharibə günləri bir daha göstərdi ki, dövlətlərarası münasibətlər həqiqətən də dostluğa, qardaşlığa söykənir. İkinci Qarabağ müharibəsi zamanı Türkiyə tərəfindən göstərilən dəstək hər kəsin sevincinə səbəb oldu. Heç kəsə sirr deyil ki, Türkiyə Ermənistan-Azərbaycan münaqişəsinin həlli işində daim Azərbaycana böyük dəstək göstərdi. Bu gün işğaldan azad olunan torpaqlarımızda Azərbaycan və Türkiyə bayraqları dalğalanır.

### REGİONUN İNKİŞAFINA MÜHÜM TÖHFƏLƏR

Əlbəttə ki, ölkələrimiz arasında əlaqələrin yüksəlməsində Azərbaycan və Türkiyə prezidentlərinin mühüm rolu var. Qeyd edək ki, Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətdir. Qardaş ölkə Azərbaycanın müstəqilliyini 1991-ci il noyabrın 9-da tanıyıb. İki ölkə arasında diplomatik münasibətlər isə 1992-ci il yanvarın 14-də qurulub. 1992-ci ilin avqustunda Azərbaycanın Türkiyədə səfirliyi fəaliyyətə başlayıb. Sonrakı illərdə - 1993-cü ildə Azərbaycanın İstanbulda, 2004-cü ildə isə Qarsda baş konsulluqları təsis edilib. Türkiyənin isə hazırda Gəncədə və Naxçıvanda baş konsulluqları fəaliyyət göstərir.

İstər ikitərəfli, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində dostluq və əməkdaşlıq münasibətlərinin ən yüksək nümunəsini ortaya qoyan Azərbaycan və Türkiyə birlikdə nəhəng layihələr reallaşdırmaqla təkcə ölkələrimizin deyil, böyük bir regionun da inkişafına mühüm töhfələr verir. Azərbaycanın və Türkiyənin birlikdə həyata keçirdiyi Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP və TAP kimi meqalayihələrdən qardaş ölkələrimizlə yanaşı, digər xalqlar da faydalanır.

Ölkələrimizin beynəlxalq və regional təşkilatlar, o cümlədən BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı çərçivəsində əlaqələndirilmiş fəaliyyət, qarşılıqlı dəstəyin davam etdirilməsi və gücləndirilməsi istiqamətində atdığı addımlar öz bəhrəsini verməkdədir. Azərbaycan-Türkiyə əlaqələrinin belə yüksək inkişafı regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir.

### AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİNİN İNKİŞAFININ YOL XƏRİTƏSİ

2021-ci ildə Türk dünyanının mədəniyyət paytaxtı Şuşanın şahidliyi ilə imzalanan Müttəfiqlik sənədi Azərbaycan-Türkiyə əlaqələrinin inkişafının yol xəritəsidir. Şuşa Bəyannaməsi iki qardaş ölkə arasında tarixi münasibətlərin yeni mərhələsi sayılır. Bu sənəddə təsbit olunan strateji müttəfiqlik qardaş dövlətlərimiz arasında bütün sahələrdə sıx əməkdaşlıq, habelə təhlükəsizlik və müdafiə sahələrində qarşılıqlı yardım prinsiplərini ehtiva edir. Bəyannaməyə əsasən, Türkiyə ilə Azərbaycanı və Azərbaycanın qərbdəki bölgələri ilə Naxçıvan Muxtar Respublikasını birləşdirən dəhlizin açılması iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsində vacib rol oynayacaq. Hazırda ölkələrimiz arasında elə sahə yoxdur ki, yüksək səviyyədə inkişaf etməsin. Türkiyənin müdafiə sənayesi bu gün bütün dünya tərəfindən qəbul edilir.

Dövlətlərarası mövcud münasibətlər, eləcə də türkdilli ölkələr və xalqlar arasında birliyin və əməkdaşlığın daha da gücləndirilməsini şərtləndirən ən mühüm amillərdən biridir. "Türkiyə-Azərbaycan əlaqələri, eyni zamanda, bütün Türk dünyası üçün də mühüm rol oynayır. Biz Türk dünyasının birləşməsi, türkdilli dövlətlər arasında əlaqələrin inkişafı üçün birgə səylər göstəririk", - deyə Azərbaycan Prezidenti bildirib.

***Zümrüd BAYRAMOVA***



# Prezident İlham Əliyev bp şirkətinin baş icraçı direktorunu qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 19-da bp şirkətinin baş icraçı direktoru Mürrey Aukinklossu qəbul edib. Söhbət zamanı uzun illərdir Azərbaycanla bp arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi məmnunluqla vurğulandı.

Ölkəmizdə enerji resurslarından əldə olunan gəlirlərin səmərəli şəkildə Azərbaycanın sosial-iqtisadi inkişafına yönləndirildiyi qeyd edildi.

Bir sıra Avropa dövlətlərinin enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın roluna toxunuldu, ölkəmizdə karbohidrogen enerji resursları ilə bərabər bərpaolunan enerji mənbələrinin də böyük potensialının olduğu vurğulandı. Bu xüsusda bp şirkətinin işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirdiyi layihənin əhəmiyyəti qeyd olundu. Görüşdə SOCAR ilə bp arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan MAMA "Ana təbiət" sərgisi ilə ilk dəfə London Dizayn Biennalesində

***London Dizayn Biennalesi-2025 çərçivəsində Azərbaycan pavilyonunun rəsmi açılışı olub. Azərbaycan London Biennalesində ilk dəfə təmsil edilir. AZƏRTAC xəbər verir ki, milli pavilyon çərçivəsində Heydər Əliyev Mərkəzi və IDEA İctimai Birliyinin təqdim etdiyi MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisində təbiət incəsənətin, yaddaşın və gələcəyin mənbəyi kimi təsvir olunur və insanın təbiətlə dərin bağları müasir incəsənət və ekoloji düşüncə vasitəsilə araşdırılır.***


















Sərginin açılış mərasimində çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva planetimizdə iqlim dəyişikliyi nəticəsində yaranan mövcud problemlərə diqqət çəkərək təbiətlə yenidən əlaqə qurulmasının vacibliyini, qayğının, yaradıcı düşüncənin rolunu vurğulayıb. "Təbiət bizim evimizdir. Qlobal dəyişikliklər fonunda biz yalnız məsuliyyət deyil, eyni zamanda incəsənət, gözəllik, qadın duyumu vasitəsilə təbiətin ritmlərini, səsini yenidən eşitmək imkanı əldə edirik", - deyən Leyla Əliyeva bildirib ki, "Ana təbiət" beynəlxalq incəsənət layihəsi Bakıda Heydər Əliyev Mərkəzindəki debütü, Bəhreyn İncəsənət Mərkəzi və Romadakı MAXXI incəsənət muzeyindəki uğurlu təqdimatından sonra səyahətini davam etdirir. Londondakı sərgi bu yolun mühüm mərhələsinə çevrilib və Azərbaycan bir daha sübut edir ki, mədəniyyət, ekologiya və humanist dəyərlərin qovşağında qlobal dialoq aparmaq gücünə malikdir.

London Dizayn Biennalesi-2025-in direktoru Viktoriya Broaks çıxışı zamanı pavilyonun şeiriyyətini diqqətə çəkib və ekoloji çağırışa verdiyi bədii cavabı yüksək qiymətləndirib.

Böyük Britaniyanın Azərbaycan və Mərkəzi Asiya üzrə ticarət elçisi, Britaniya parlamentinin Lordlar palatasının üzvü lord Con Alderdays mədəni mübadilənin və ekoloji dialoqun davamlı gələcək üçün əhəmiyyətini vurğulayıb.



London Dizayn Biennalesi tarixi "Somerset House" binasında iki ildən bir keçirilən beynəlxalq sərgidir. Biennale müxtəlif ölkələrdən rəssam, dizayner, memarları bir araya gətirir. London Dizayn Biennalesi bu il "Səthin əks olunması" (Surface Reflections) mövzusunu əhatə edir. Azərbaycan pavilyonu iyunun 29-dək ziyarətçilər üçün açıq olacaq.

# Dövlət və cəmiyyətin inkişafı naminə siyasi əməkdaşlıq



***İyunun 19-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Vəhdət Partiyasının VI Qurultayında yeni seçilmiş sədri Adəm İsmayıl oğlu Bakuvi ilə görüşüb.***

AZƏRTAC xəbər verir ki, A.Bakuvini partiya sədri seçilməsi ilə əlaqədar təbrik edən Prezident Administrasiyasının şöbə müdiri ölkəmizdə siyasi müstəvidə sağlam əməkdaşlıq mühitini təşviq edən siyasi dialoqda partiyanın bundan sonra da fəal iştirakına ümid etdiyini bildirib.

Görüş zamanı Prezident İlham Əliyevin təşəbbüsü ilə aparılan çoxsahəli islahatlar, əldə olunmuş tarixi Qələbə, uğurla icra olunan Böyük Qayıdış proqramı, sağlam iqtidar-müxalifət münasibətlərinin dəstəklənməsinin vacibliyi, konstruktiv əməkdaşlıq əlaqələrinin inkişafı, Azərbaycana qarşı aparılan informasiya müharibəsində siyasi partiyaların fəal mövqe sərgiləməsinin əhəmiyyəti və digər bu kimi məsələlər barədə danışan Administrasiya rəsmisi dünyada müşahidə olunan münaqişələr və mürəkkəb proseslər fonunda milli həmrəyliyin qorunmasının müstəsna əhəmiyyətini xüsusi vurğulayıb.

Eyni zamanda, görüş çərçivəsində cəmiyyəti düşündürən məsələlərlə bağlı siyasi partiyalarla açıq müzakirələrin aparılması məqsədilə təşkil olunan müxtəlif tədbirlər haqqında fikir mübadiləsi aparılıb və bundan sonra da mövcud təcrübənin inkişaf etdiriləcəyi bildirilib.

Son dövrdə görülən məqsədyönlü işlər nəticəsində siyasi partiyaların ölkənin siyasi-ictimai həyatında artan rolunu qeyd edən A.Bakuvi sədrlik etdiyi partiya üçün milli maraqların və dövlətçilik mövqeyinin qorunmasının hər zaman prioritet təşkil edəcəyini vurğulayıb.

Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması məsələsinin partiyanın fəaliyyətinin əsas istiqamətlərindən biri olacağını vurğulayan partiya sədri dialoq mühitini dəstəkləmək məqsədilə ölkədə fəaliyyət göstərən sağlam niyyətli siyasi partiyalar ilə açıq əməkdaşlıq əlaqələrinin inkişafı məsələsinin də partiyanın gündəlik vəzifələrindən biri olacağını bildirib.

# Uşaqlar peşələrini özləri seçməlidir, yoxsa valideynləri?

***Müasir dövrdə cəmiyyətlərin inkişafı ilə yanaşı, fərdi azadlıqların və seçimlərin önəmi də artmaqdadır. Bu baxımdan, uşaqların gələcək peşə seçimində öz fikirlərini ifadə etmələri və qərarvermə prosesinə fəal şəkildə qoşulmaları mühüm əhəmiyyət daşıyır. Hələ kiçik yaşlardan başlayaraq maraq dairəsi və qabiliyyətlərinə uyğun istiqamətlənən uşaqlar, gələcəkdə həm daha xoşbəxt, həm də daha uğurlu fərdlərə çevrilə bilərlər. Lakin bəzi hallarda valideynlərin və ya cəmiyyətin təzyiqləri bu qərarların müstəqil verilməsinə mane olur. Bəs vətəndaşlar bu barədə nələr düşünür? SİA mövzu ilə bağlı şəhər sakinlərinin fikirlərini öyrənib.***




**Şəhər sakini Əfsanə Azıyeva:** "Məncə, uşaqların gələcək peşələrini seçməkdə öz sözləri olmalıdır. Axı bu, onların həyatıdır. Biz, böyüklər kimi, onlara yol göstərə bilərik, təcrübəmizi bölüşə bilərik, amma sonda hansı peşəni seçəcəklərinə özləri qərar verməlidirlər. Çünki ömür boyu o işi görəcək olan elə onların özüdür.



Bəzən valideynlər övladlarını yalnız "ad-san"a görə müəyyən sahələrə yönləndirirlər. Deyirlər, "filankəsin oğlu həkim oldu, sən də ol". Amma unudurlar ki, hər uşaq fərqlidir, hərənin öz marağı, bacarığı, dünyaya baxışı var. Uşaq rəssam olmaq istəyirsə, onu zorla mühəndis etməyin. Axırda da nə uşaq razı qalır, nə də nəticə ürəkaçan olur".

**Şəhər sakini Paşa Cəfərov:** "Mən bir valideyn və həyat təcrübəsi olan biri kimi düşünürəm ki, uşaqların peşə seçimində əsas söz sahibi elə onların özləri olmalıdır. Hər bir insanın həyatı boyu məşğul olacağı işi özü müəyyənləşdirməsi onun xoşbəxtliyi, motivasiyası və cəmiyyətə töhfəsi baxımından olduqca vacibdir. Uşaqların öz istəklərinə, maraq dairələrinə və bacarıqlarına uyğun sahələrə yönəlməsi, gələcəkdə onların həm peşəkar, həm də fərdi inkişafı üçün əsas şərtdir. Valideynlər övladlarına yalnız yol göstərməli, onların qabiliyyətlərini tanımağa çalışmalı və lazım gəldikdə məsləhət verməlidirlər. Amma son qərarı uşağın özünə buraxmaq daha doğrudur.



Təəssüf ki, bəzi hallarda uşaqların arzuları nəzərə alınmır və yalnız cəmiyyətin gözündə "nüfuzlu" sayılan peşələr üstün tutulur. Bu isə çox zaman uşağın daxili istəkləri ilə uyğun gəlmir və nəticədə nə uşaq xoşbəxt olur, nə də seçilən peşədə uğur əldə edilir".

**Şəhər sakini Səriyyə Hüseynova:** "Düzü, mən həmişə düşünmüşəm ki, insan həyatda sevdiyi işi görməlidir. Çünki bir işi sevəsevə görmək insanı həm xoşbəxt edir, həm də uğurlu. Bu baxımdan uşaqların peşə seçiminə gələndə, məncə onların öz fikirləri mütləq nəzərə alınmalıdır.



Valideyn olaraq biz onlara yol göstərə bilərik, təcrübəmizi paylaşa bilərik, amma son qərarı uşağın özü verməlidir. Çünki o sahədə təhsil alacaq, imtahan verəcək, işləyəcək, çətinliklərə dözəcək olan - elə onların özüdür. Biz bəlkə də beş-on il müşahidə edəcəyik, amma onlar o sahədə ömrünü keçirəcək".

**Şəhər sakini İsa Quliyev:** "Mən istəyirəm bir az da gerçəyi danışım. Bu gün uşaqların peşə seçimində "özləri seçsin" deyirlər. Amma vallah, bu fikri mən çox təhlükəli hesab edirəm. Uşaq kiçikdir, həyatı tam anlamır, gələcəyin nə olduğunu görmür. Onun ürəyi bu gün nəsə istəyir, sabah başqa şey. Biz valideynlər isə məsuliyyət daşıyırıq ki, uşaqlarımızın həyatı məhv olmasın.



Məsələn, elə bilirsiniz, "mən youtuber olmaq istəyirəm" deyəndə, bu sadəcə uşaqlığın xəyalıdır. Amma biz övladlarımızın sabah necə dolanacağını da düşünməliyik! Uşağa deyirik ki, "filankəs həkim oldu, sən də olmalısan", amma biz bu "zorakılıq" edirik deyə, onların peşə seçimini məhdudlaşdırırıq deyirlər. Amma mən deyirəm ki, bu məhdudiyyət deyil, bu, gələcək üçün qayğıdır.

Biz valideynlər övladlarımızı düzgün yola yönəltməsək, onlar sadəcə arzulara uyub, heç bir perspektivi olmayan sahəyə gələrlər. Sonra da biz "niyə iş tapa bilmir" deyib ağlayarıq. Əslində bu, bizim məsuliyyətimizdir".

**Şəhər sakini Ləman Məmmədova:** "Bu gün uşaqlarımızın gələcəyi barədə danışarkən, mənim ürəyimdə çox fikirlər dolaşır. Bilirsiniz, biz valideynlər övladlarımız üçün ən yaxşısını istəyirik, onların rahat, xoşbəxt və uğurlu həyat sürməsini arzulayırıq. Amma çox vaxt unuduruq ki, uşaqlarımızın da öz arzuları, istəkləri, xəyalları var.



Mən inanıram ki, uşaqlarımızın öz peşələrini seçmək haqqı olmalıdır. Çünki həyatlarını onlar yaşayacaq, onlar həmin işdə işləyəcək. Biz isə onları dəstəkləməli, yol göstərməliyik, amma zorla seçim etdirməməliyik. Bizim təcrübəmiz onların həyatını daha rahat edə bilər, amma onların öz ürəyindən gələn seçimi ən vacib olanıdır".

**Şəhər sakini Üstarə Namazova:** "Valideyn həm təcrübəyə sahibdir, həm də uşaqdan fərqli olaraq sabit düşünür. Biz uşağa desək ki, "bala, bu sahəni seç, sabah peşman olmazsan", bu, zorla etdiyimiz şey deyil. Bu, onun xeyrinə verilən qərardır. Bəzən biz uşağın gələcəkdə "çox sağ ol" deyəcəyi seçimləri bu gün etmək məcburiyyətindəyik. Təbii ki, uşağın arzularını eşitməliyik. Amma arzu ilə real həyat arasında fərq var. Uşaq onu indi görmür, amma biz görürük. Gələcəkdə iş tapa biləcəkmi? O sahənin bazarı nə yerdədir? Bu sualları cavablandırmaq - valideynin vəzifəsidir. Ona görə də mən hesab edirəm ki, peşə seçimi məsələsində əsas söz valideyndə olmalıdır. Uşaq isə bu yolda müşahidə edilməli, dəstəklənməli və düzgün istiqamətləndirilməlidir. Seçim azadlığı vacibdir, amma yönləndirmə və düzgün qərar daha vacibdir".



**Şəhər sakini Fidan Katibli:** "Bir tərəfdən, uşaqların öz maraqlarına və qabiliyyətlərinə uyğun seçim etmələri çox önəmlidir. Çünki insan ürəkdən sevdiyi işdə həm xoşbəxt olur, həm də daha uğurlu olur. Onların arzularını, istəklərini dinləmək, hörmətlə yanaşmaq hər birimizin borcudur. Digər tərəfdən isə valideynlər həyat təcrübəsinə, cəmiyyətin reallıqlarına əsaslanaraq, uşaqlara doğru istiqamət verməlidirlər. Biz bilirik ki, bəzən uşaq hələ gələcəyin çətinliklərini görmür və qərarları tez-tez dəyişir. Valideynlərin məsləhətləri bu yolda uşaqlar üçün çox dəyərlidir.



Əslində, uşağın azadlığı ilə valideynin məsuliyyəti bir-birini tamamlayır. Uşaqların seçim azadlığı təmin olunmalı, amma valideynlər də onlara məsuliyyət hissi aşılamaq, real vəziyyəti izah etmək və dəstək olmaq vəzifəsini unutmalıdırlar".

**Şəhər sakini İbrahim İsaoğlu:** "Məncə, uşaqların gələcək peşə seçimində həm onların öz fikirləri, həm də valideynlərin təcrübəsi və istiqamətləndirilməsi çox önəmlidir. Bu məsələdə tək tərəfli yanaşma doğru olmaz. Bir tərəfdən, uşaqlar öz arzularını ifadə etməli, maraqlarına və qabiliyyətlərinə uyğun seçim etməkdə azad olmalıdırlar. Çünki insan ömrü boyu sevdiyi işlə məşğul olanda həm xoşbəxt, həm də daha uğurlu olur. Uşaqların daxili dünyasını, istəklərini dinləmək, onları başa düşmək hər bir valideynin və müəllimin əsas borcudur.

Digər tərəfdən, valideynlər həyat təcrübəsinə və reallıqlara əsaslanaraq uşaqlara düzgün istiqamət verməlidirlər. Hər uşaq gələcəyin bütün çağırışlarını görmür, ona görə valideynin məsləhətləri, bazar şəraitini və peşənin perspektivlərini nəzərə alaraq tövsiyələri vacibdir. Valideyn yalnız məcbur edən yox, dəstəkləyən, yol göstərən olmalıdır. Əslində, ideal vəziyyət budur ki, uşağın arzuları ilə valideynin tövsiyələri arasında sağlam balans yaransın. Uşağın fikri hörmətlə dinlənilsin, onun öz seçimi olsun, amma valideyn də məsuliyyətli şəkildə onu mümkün risklərdən xəbərdar etsin və daha geniş perspektivdən düşünməyə sövq etsin. Beləliklə, uşaq həm azad seçim imkanına malik olar, həm də səhv addımların qarşısı alınar. Nəticədə, həm fərdi xoşbəxtlik, həm də sosial uğur təmin edilər. Məncə, bu mövzuda ən düzgün yol məhz qarşılıqlı hörmət və əməkdaşlıqdır".



***Xeyrənsə Piriyeva***

# Qürurlu xalqın qəhrəman oğlu - MÜBARİZ İBRAHİMOV

***Bizim qəhrəmanlarımız ermənilərin yaratdığı "qəhrəmanlar" kimi mif deyil. Biz ermənilər kimi uşaq başı kəsən, qadın və qocalara divan tutanları qəhrəman etmirik, bizim Mübariz kimi real igidimiz var ki, tarixə şəhidlik zirvəsinə yüksələrək adlarını yazıblar. Torpaqlarımızı işğaldan azad edən igid ŞƏHİDLƏRİMİZ!***

44 günlük Vətən müharibəsində xalqımıza Zəfər tarixini yaşadan oğullarımız Qələbə tariximizi bizimlə qeyd etməsələr də, qalib xalqın övladı kimi məzarlarında rahat nəfəs alırlar. Bu gün Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü yolunda şəhid olmuş vətən övladlarının hər birinin qəhrəmanlıq tarixi dildən-dilə düşərək sanki əfsanəyə çevrilib. Elə Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov kimi. Milyonların ürəyində heykəlini ucaldan xalqımızın Mübariz oğlu. Hər zaman xalqın yaddaşında, qəlbində olan bir qəhrəman. Gənclərə örnək, torpağımıza ucalıq gətirən Mübariz. Vətən ucalığı, vətən sevgisi onun ömür yolunu yarımçıq qoydu. Qəhəmanlıq zirəsinə yüksəltdi. Heç vaxt zirvədən enməyəcək bir yüksəklikdə özünün əbədi məşəlini yandırdı - şəhidlik zirvəsinə yüksəldi. Özü də 22 yaşında. 22 bahar yaşamış bir insan üçün işıqlı ömür yolları olduğu halda seçimində qərarlı oldu. Hər dəfə işğal tariximizlə bağlı bir söz eşidəndə düşmənə qarşı nifrəti daha da artır. Deyirlər vətənpərvərlik ana laylalarından başlayır. Körpə böyüdükcə onun torpağa, elə-obaya bağlılığı yoğrulduğu ana laylalarından kök atmağa başlayır. Sonralar vətənə, doğma torpağa məhəbbət nağıllarımızdan, dastanlarımızdan, atalar sözlərindən əxz olunmağa başlayır. Vətənlə bağlı düşüncələri, vətənpərvərlik tərbiyəsi, vətəni sevmək kimi ali dəyərlər Mübarizi qəhrəman kimi yetişdirir - ərən, igid, mübariz. 22 yaşlı bir gəncin düşmənlə üz-üzə gələrək, qisası qiyamətə qoymaması onun ruhi, əqli, mənəvi dünyasında hökmranlıq edən Vətən sevgisindən köklənmişdi.



### VƏTƏN TORPAĞINA CAN VERMƏK QƏHRƏMANLIQ VƏ ŞÜCAƏTDİR

Çoxəsrlik tarixinin şərəfli mərhələsini yaşayan Azərbaycan xalqı Qalib xalq olaraq dünyaya gücünü göstərmiş oldu. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Milli Ordumuzun 27 sentyabr 2020-ci il tarixdən başlanan əks-hücum əməliyyatları nəticəsində 30 ilə yaxın mənfur qonşumuz Ermənistanın işğal altında saxladığı Qarabağı azad etməklə milli çağdaş tariximizə şanlı səhifə yazdı. Çağdaş tariximizə 44 günlük Vətən müharibəsi kimi daxil olan bu hərbi əməliyyat nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyü təmin edildi. Minlərlə vətən oğlu şəhidlik zirvəsinə yüksəldi. Bu zirvəyə yüksəlmək hər kəsə nəsb olmur. Torpaq yolunda can fəda etmək, bu torpağın vətəndaşı olaraq onun yaddaşına hopmaq, qanı ilə vətən torpağına can vermək böyük hünər, qəhrəmanlıq, şücaətdir.

### ƏSRLƏRƏ DASTAN ÖMÜR

Hər dəfə onun qısa, lakin neçə-neçə onilliklərə bərabər bir ömür yaşadığını görürük. Əsrlərə dastan olacaq bir ömür yaşadı. Neçə-neçə əsrlər bu əfsanəyə çevrilmiş ömür yolundan yazılacaq, qəhrəmanlığı dildən-dilə dolaşacaq. 1988-ci ilin 7 fevral tarixində Biləsuvar rayonunun Əliabad kəndində anadan olan Mübariz bir kəndin, bir rayonun yox, bütün türk dünyasının övladına çevrildi. Qısa ömründən sətirlər oxuyuruq. 1994-cü ildə şəhid M.Piriyev adına Əliabad kənd orta məktəbinin 1-ci sinfinə daxil olaraq 2005-ci ildə orada orta təhsilini başa vurub. Həmin il həqiqi hərbi xidmətə çağrılıb. Əsgəri xidmətini Daxili Qoşunların "N" saylı hərbi hissəsinin Xüsusi Təyinatlı Bölüyündə keçirib. Həqiqi hərbi xidmətini 2007-ci ildə çavuş rütbəsində başa vurub. Bir müddət mülki işlərdə işlədikdən sonra 2009-cu ilin avqust ayında yenidən gizir rütbəsində hərbi xidmətdə çalışmağa başlayıb. Sonra öz arzusu ilə cəbhə bölgəsindəki hərbi hissələrdən birində xidmət edib. Bu yola qədər uşaqlıq və gənclik illərinin ilk illərində baş verən hadisələr onun yaddaşına elə həkk olur ki, o düşməndən intiqam almaq hissi ilə yaşayır. Mübariz Qarabağ müharibəsi ilə həmyaşıd idi.

SON MƏKTUB

19 iyun 2010-cu il tarixində gecə saat 23:30 radələrində gizir Mübariz İbrahimov təkbaşına iki ordu arasındakı bir kilometrlik minalanmış sahəni keçir. Belə bir qətiyyətli addımı atarkən ailəsinə son məktubunu yazmağı şübhəsiz ki, özünə borc bilir: "Canım atam və anam. Məndən ötrü darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam - ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin. Seyid nəvəsi olaraq bunu etməliyəm. Allah böyükdür. Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin". Bu hallalıqdan sonra qəhrəmanlığa doğru addımlarını atır. Ermənistan silahlı qüvvələrinin çox sayda əsgər və zabitini gözlənilməz birinci həmlədə məhv edir. Sonra isə düşmənin öz silahlarından özünə qarşı istifadə edərək 5 saat onlarla təkbətək döyüşür. Düşməni ağır itkilərə məruz qoyur, onların zəif cinahlarını üzə çıxarır. Azərbaycan döyüşçüsü səhər saatlarında qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olur. Bu şəhidlik bütün Azərbaycana, dünya ölkələrinə işıq sürəti ilə yayılır. Atası Ağakərim İbrahimov belə deyir: "Hadisənin səhəri günü tezdən saat 5-6 arasında mənə zəng gəldi. Soruşdular ki, oğlunuz evə gəlməyib ki? Hətta bildirdilər ki, çoxlu silah götürüb və ərazidən uzaqlaşıb. Dedim, mən oğlumu tanıyıram, sərhədə tərəf gedin. Sonra da məktubunu tapmışdılar..."

### REMBO KİNODA 200 NƏFƏRDƏN ÇOX ADAM ÖLDÜRƏNDƏ, DEYİRSƏN Kİ, BU FANTASTİKADIR...

Hər kəs yaxşı xatırlayır. Rusiya prezidenti Vladimir Putinin Azərbaycanda yeni Rembo peyda olub, deyə bildirmişdi: "Mən çox qəribə və maraqlı məlumat almışam. Bir gecə silahlanıb təkbaşına erməni ordusuna qarşı hücuma keçərək 135 nəfər erməni əsgər və zabitini qanına qəltan edib. Əgər rəsmi məlumat olmasaydı, mən bu xəbərə inanmazdım. Çünki biz bu cür igidlikləri kinolarda görmüşük. Rembo kinoda 200 nəfərdən çox adam öldürəndə, deyirsən ki, bu fantastikadır. Həqiqətən də bu fantastikaya oxşayır. Axı, necə ola bilər ki, bir nəfər silahlı 200 nəfər silahlıya atəş açır, 200 nəfərin atdığı atəş isə bu bir nəfərə dəymir, həmin bir nəfər isə sərrast atəşlə hamısını yerə sərir. Bu heç cür ağlabatan deyil. Deməli, Rembo təkcə kinoda deyil, həyatda da var." Bu əfsanələşən bir filmin qəhrəmanı bizim Mübarizdir. Azərbaycanlı Mübariz. Dünyaya, ən əsası da ermeniyə Azərbaycan gücünü, Azərbaycan oğlunun belə bir cəsarətini, qəhrəmanlığını göstərdi. Fəxrimiz, Fəxarətimiz MÜBARİZ. Belə bir şəhidlik, qəhrəmanlıq hər həsə nəsib olmur. Bunu Azərbaycan torpağının yetirdiyi Mübariz İbrahimov göstərdi! Vətən üçün hər kəsin cavabdeh olmasını yaxşı anlayırdı Mübariz İbrahimov. Hər vaxt üçrəngli bayrağını uca tutan cəsur oğullar millətimizin qürur mənbəyidir.

### ZAMAN ÖZ QƏHRƏMANINI YETİŞDİRDİ

Azərbaycanda saxta qəhrəmanlar olmur. Bugünkü dünyada bütün arxiv sənədlərinin aşkar şəkildə olması, həqiqətlərin dünyaya çatdırılması, ağı qaradan seçməyə imkan yaradıb. Təbii ki, heç kəs anadan qəhrəman doğulmur. Onu yaşadığı zaman, doğulduğu torpaq, vətənpərvərlik ruhu yetişdirir.

Ermənilərə dərs verən Mübariz İbrahimovun cəsədini Ermənistan 141 gün saxlamışdır. Ermənilər İbrahimovun cəsədinin şəkillərini internet saytlarında yayımlamışdır. Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair 27 oktyabr 2010-cu il tarixli birgə bəyanatına uyğun olaraq, eyni zamanda, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının beynəlxalq təşkilatlarla apardığı müntəzəm danışıqların nəticəsində, İbrahimovun meyidi 6 noyabr 2010-cu il tarixdə Ağdam-Bərdə yolunun üzərində, işğal altındakı Baş Qərvənd kəndi yaxınlığında Ermənistan tərəfdən alınmışdır. Proses Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Azərbaycan Respublikası Müdafiə Nazirliyi əməkdaşlarının iştirakı, Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə həyata keçirilmişdir. 2010-cu il noyabrın 7-də Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində keçirilən vida mərasimində Azərbaycan Prezidenti İlham Əliyev də iştirak edərək, nitq söyləmişdir. Bizim qəhrəman İkinci Fəxri xiyabanda dəfn olunmuşdur.

### XATİRƏSİ ƏBƏDİLƏŞDİRİLƏN QƏHRƏMAN

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Milli Ordusunun giziri Mübariz Ağakərim oğlu İbrahimova "Azərbaycanın Milli Qəhrəmanı" adının (ölümündən sonra) verilməsi barədə Sərəncam imzalayıb. Prezidentin başqa bir Sərəncamı ilə Milli Qəhrəman Mübariz Ağakərim oğlu İbrahimovun xatirəsini əbədiləşdirmək məqsədilə Biləsuvar rayonunun orta məktəblərindən birinə Mübariz İbrahimovun adı verilib. Biləsuvar rayonunda küçələrdən biri Mübariz İbrahimovun adını daşıyır. 2008-ci ildə Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin istehsal etdiyi "İstiqlal" snayper tüfəngləri ailəsindən 12.7 mm çaplı ikinci tüfəng onun şərəfinə "Mübariz" adlandırılıb. Qardaş Türkiyə də tədbir, film və seriallarında Azərbaycan qəhrəmanı Mübariz İbrahimovun adını sonsuz hörmət və məhəbbətlə yada salıb və salır. 2014-cü ildə Kanadanın Ottava şəhərində yerləşən Minto Parkında Azərbaycan icmasının təşəbbüsü ilə Mübariz İbrahimov adına xatirə lövhəsi vurulub. 2016-cı ildə Sumqayıtda küçələrdən birinə Milli Qəhrəman Mübariz İbrahimovun adı verilib. Mübariz adını doğrultdu. Vətəninin mübarizliyini dünya bir daha sübut etdi. Bu ad hər azərbaycanlının qəlbindədir! Şəhid Mübarizimiz yaşayır!!! Bu gün o, məzarında rahat nəfəs alır. Onun məsləkdaşları Mübariz ruhunda böyüdülər. Çoxları Mübariz yolu ilə getmək arzusu ilə yaşayırdı. Axı vətən torpağının 20 faizi işğal altında idi. 2020-ci il 27 sentyabr tarixində başlanan Vətən müharibəsində vətənin müdafiəsinə qalxdılar. Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında bir yumruq olaraq birləşdilər. Geriyə dönmədən bu günü illərdir gözlədiklərindən düşməni 44 günlük müharibədə məğlub etdilər. Zəfəri yaşamaq xalqımıza nəsib oldu. Bu yolda şəhid də oldu, qazi də. 30 illik həsrətə son qoyuldu. Xalqın Zəfər tarixi yazıldı. Bu gün Azərbaycanda minlərlə MÜBARİZLƏR var. Bəli, tarix heç zaman unudulmur, tarix yazılır. Tarixi yazan isə Vətənin namuslu, mərd və MÜBARİZ oğullarıdır. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

***Nəzakət ƏLƏDDİNQIZI***

## "Bakcell" "PwC illik CEO sorğusu"nda iştirak edib




"Bakcell"in baş icraçı direktoru Klaus Müller hər il dünyanın müxtəlif ölkələrindən biznes liderlərinin iqtisadi, texnoloji və strateji məsələlərə bağlı mövqelərini əks etdirən "PwCillik CEO sorğusu"nda iştirak edib. "PwCAzərbaycan" nümayəndələri ilə müsahibə zamanı Klaus Müller ölkədə sürətlənən rəqəmsal və texnoloji inkişafın tendensiyaları ilə bağlı fikirlərini bölüşüb. O, innovasiyanın telekommunikasiya və texnologiya sənayesini dəyişdirən gücünü, süni intellektin genişlənən tətbiq sahələrini və qlobal trendlərin yaratdığı yeni imkanları vurğulayıb. Klaus Müller davamlı yenilənən texnoloji mühitə çevik adaptasiyanın və gələcəyə yönəlmiş milli ekosistemin formalaşmasında sahələrarası əməkdaşlığın vacibliyini diqqətə çatdırıb. "İnnovasiya və süni intellekt "Bakcell"in inkişaf strategiyasının əsasını təşkil edir. Bu istiqamətdə görülən ardıcıl və strateji işlər vasitəsilə biz məhsul və xidmətlərimizdə tətbiq etdiyimiz yeniliklərlə yanaşı, Azərbaycanın rəqəmsal gələcəyinin qurulmasına töhfə verməyi hədəfləyirik." - deyə Müller bildirib.

"PwC Qlobal" tərəfindən keçirilən sorğu ölkələr üzrə aparıcı şirkət rəhbərlərinin iqtisadi vəziyyət, dayanıqlılıq, texnoloji inkişaf və gələcək perspektivlərə dair mövqelərini əhatə edir. 2024-cü ildə 109 ölkədən 4701 şirkət rəhbərlərinin iştirak etdiyi sorğunun nəticələri İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumu çərçivəsində təqdim olunub. 2025-ci ilin sorğusunda xüsusilə, rəqəmsal transformasiya, süni intellektin təsiri və dayanıqlı inkişaf məsələləri ön plana çıxarılıb.

***Bu mərhələdə həmkarlar ittifaqlarının hüquqlarının ölkə qanunvericiliyinə və beynəlxalq hüquq normalarına uyğun olaraq təmin edilməsi və məhdudlaşdırılmaması ən vacib məsələlərdən biridir.***

*İlham Əliyev*

## Azərbaycan Həmkarlar İttifaqları-120

# Həmkarlar ittifaqlarının gücü mütəşəkkilliyindədir



***Hüseyn Qaraşov sosiologiya elmlər doktoru, professor***

Birinci növbədə respublikamızın həmkarlar ittifaqı hərəkatına yer verdiyinə görə "Səs" qəzetinin redaksiyasına öz təşəkkürümü bildirirəm. "Səs" qəzeti öz missiyasını şərəflə davam etdirir, "Əkinçi" nin prinsiplərinə tam sadiqdir: "Qəzetin ümdə muradı mübahisədir, aqil şəxslər birbirilə mübahisə edib işləri xalqa bəyan etsinlər" (1876-cı il 6-cı nömrə). Bu mənada həqiqətən "Səs" qəzeti çox böyük işlər görür. Son zamanlar həmkarlar ittifaqı hərəkatı haqqında "Səs" qəzetində çap edilmiş məqalələr oxucularda geniş marağa səbəb olmuşdur. Oxucular bu mövzuda yazıların davam etdirilməsini istəyirlər. Bunu nəzərə alaraq Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin "Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır" fikrini rəhbər tutaraq Azərbaycan həmkarlar ittifaqlarının keçmişi və bu günü haqqında qeydlərimi davam etdirirəm. Azərbaycanda ilk dəfə 1905-ci il oktyabr ayının 17-də Bakı şəhəri atla sürülən dəmir yolu fəhlələri və qulluqçularının həmkarlar ittifaqı yaradılmışdır. Bundan sonra başqa sahələrdə də həmkarlar ittifaqlarının yaradılması üçün müzakirələr gedirdi. 1906-cı ilin oktyabr ayının 1-də "Neft sənayesi fəhlələrinin ittifaqı yaradıldı. Çar hökuməti hər vəchlə çalışırdı ki, həmkarlar ittifaqının genişlənməsinin qarşısını alsın. Lakin buna müvəffəq ola bilmədi. 1908-ci ildə kontor, zavod və mədən qulluqçuları, ağac emalı fəhlələri həmkarlar ittifaqları fəaliyyətə başladı. 1910-cu ildə Astarada dəniz və sahil fəhlələrinin, Lənkəranda isə balıq tutanların həmkarlar ittifaqı yaradılmışdı. 1915-ci ildə nəşriyyatçılar, dərzilər və ticarət-sənaye qulluqçularının həmkarlar ittifaqları fəaliyyətə başlayır.

Birinci dünya müharibəsi ictimai həyatın bütün sahələrində olduğu kimi həmkarlar ittifaqlarının həyatında da durğunluq yaradır. Çətinliklərə baxmayaraq, həmkarlar ittifaqları fəaliyyətlərini davam etdirir. Fevralburjua demokratik inqilabının qələbəsindən sonra Bakıda həmkarlar ittifaqları təşkilatlarının sayı artmışdı. Təəssüf ki ilk təşkilatlar yaranarkən yerli xüsusiyyətlər nəzərə alınmamışdır. Tarixi imperiya səbəbləri üzündən fəhlələr içərisində qeyri-azərbaycanlılar üstünlük təşkil edirdi. Bolşeviklərin sayəsində yaradılan həmkarlar ittifaqı təşkilatlarında da çoxluğu onlar təşkil edirdi. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Cümhuriyyətin həmkarlar ittifaqları təşkilatları yaradılmağa başladı. Bu işdə Cümhuriyyətin banilərindən olan Cavad bəy Rzabəy oğlu Məlik-Yeqanovun xüsusi rolu olmuşdur. O, fəhlə məsələsini bolşevik ideologiyasının inhisarına verənlərdən fərqli olaraq, Azərbaycan Cümhuriyyətinin müstəqilliyi naminə çalışan fəhlələrin təmsilçisi kimi Türk Fəhlə Konfransının yaradıcısı olmuş və Həmkarlar İttifaqları Mərkəzinin sədri seçilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıqdan sonra həmkarlar ittifaqları yenidən təşkil olunmağa başladı.1920-ci il iyunun 30-da keçirilən həmkarlar ittifaqlarının birinci Ümumbakı konfransında yeni vahid respublika mərkəzi-Azərbaycan Həmkarlar İttifaqları Şurası yaradıldı. Sədrdə Azərbaycan xalqının qatı düşməni, daşnak A.İ.Mikoyan seçildi.

Təəssüf olsunki bütün mənbələrdə respublikamızın həmkarlar ittifaqlarının vahid mərkəzinin yaranma tarixi Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranan vahid mərkəzdən deyil, Mikoyanların, Mirzoyan ların, Anaşkinlərin, Konuşkinlərin yaratdığı mərkəzin tarixi göstərilir...

Sovet dönəmində həmkarlar ittifaqları kommunist partiyasının bir əlavəsi kimi fəaliyyət göstərirdi. Vətəndaş Cəmiyyəti quruculuğunda Həmkarlar ittifaqlarının rolunu yüksək qiymətləndirən Ulu öndər Heydər Əliyev prezidentliyinin ilk yarım ilində-24 fevral 1994-cü ildə cəmiyyətdə həmkarlar ittifaqlarının statusunu müəyyənləşdirən "Həmkarlar ittifaqları haqqında" Qanunu imzalamışdır. Qanunda göstərilir ki, həmkarlar ittifaqları müstəqil ictimai, qeyri-siyasi təşkilatdır. "Dövlət orqanlarının və vəzifəli şəxslərin həmkarlar ittifaqlarının hüquqlarının məhdudlaşdırılmasına səbəb olan və ya onların nizamnaməleri çərçivəsində qanuni fəaliyyətlərinə maneçilik törədən hər cür müdaxiləsi qadağandır." Obyektivlik naminə deməliyəm ki, Qanunda göstərilən hüquq və vəzifələri həyata keçirməkdə həmkarlar ittifaqları nə dünən, nə də bugün müasir tələblərə cavab verməkdə mübariz mövqe nümayiş etdirməyiblər. Əsas diqqət həmişə sovet dövründəki ənənələrə yönəlib. Ölkə başçısı cənab İlham Əliyev bununla əlaqədar demişdir: "Müasir inkişafın reallıqları və bu günün çağırışları Azərbaycan həmkarlar ittifaqlarının fəaliyyətində əsaslı dəyişikliklərin aparılmasını, dünya təcrübəsindən faydalanaraq işlərin yenidən qurulmasını labüd edir."

Leninlə trotickiçilərin çəkişmələri nəticəsində yaranan həmkarlar ittifaqının prinsiplərini unudub, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin imzaladığı "Həmkarlar ittifaqları haqqında" Qanunun tələbləri ilə işlərin yenidən qurulması yeganə yoldur. Bunun üçün də mövcud qlobal sosial-iqtisadi dəyişiklikləri nəzərə alaraq həmkarlar ittifaqlarında yeni metodologiyaya əsaslanaraq innovasion tələblərə cavab verən yeniliklərə başlanmasına ciddi ehtiyac vardır. Hazırda respublikamızın həmkarlar ittifaqlarında struktur dəyişiklikləri gedir, zəif təşkilatlar birləşib güclü təşkilat yaradırlar. Güclü təşkilata inam da yaranır. Onun maliyyə gücü, lazımi strukturlarının mövcudluğu, üzvlərinin fəallığı yalnız nüfuz qazandırır. Bu çox düzgündür, uğurlar arzulayıram. Belə hallar Azərbaycan həmkarlar ittifaqlarının tarixində olub. Olub ki, 32 respublika komitəsindən 20 respublika komitəsi saxlanılıb. Lakin həmin dövrlər həmkarlar ittifaqlarının müstəqilliyi haqqında qanuni təminat olmadığına görə bir səmərə verməmişdir. Aparılan dəyişikliklər zamanı birləşən həmkarlar ittifaqlarının mənşəcə yaxınlıq prinsipi əsas götürülsə çox səmərəli və dayanıqlı olar. İnkişaf etmiş qərb ölkələrinin həmkarlar ittifaqları bu prinsipə əməl edir və müvəffəqiyyətlə vəzifələrini yerinə yetirirlər. İndi bizdə həmkarlar ittifaqlarının müstəqilliyi üçün tam hüquqi təminat mövcuddur. İnanıram ki, özünütəşkil və özünüidarə institutu kimi təşkilatlanma öz bəhrəsini verəcək. Bu hərəkat inkişaf etmiş ölkələrdə də özünü doğruldub, məsələn, Belçikada həmkarlar ittifaqları Federasiyası "Birləş və özünütəşkilatlandır" devizi altında yaradılmışdır.

Təcrübə göstərir ki, həmkarlar ittifaqlarının nüfuzu ilk təşkilatların güclü olmasından asılıdır. Onlar öz həmkarlar ittifaqları təşkilatını yaratmasalar, həmkarlar ittifaqı da olmaz. Yuxarı orqanlar unutmamalıdır ki, həmkarlar ittifaqının əsasını ilk təşkilatlar təşkil edir. Etiraf edək ki, bəzən unudulur. Ona görə də çalışmaq lazımdır ki, ilk təşkilatlarda işin yüksək səviyyədə qurulmasını təşkil etmək üçün obyektiv seçkilər keçirilsin. Sirr deyil ki, bir çox hallarda həmkarlar ittifaqı təşkilatına rəhbər "müdiriyyətə xidmət göstərənlər" seçilir. Burada ciddi prinsipiallıq göstərmək lazımdır ki, həmkarlar ittifaqı üzvləri təşkilata rəhbər mənəvi keyfiyyəti ilə fərqlənən, işinə vicdanla yanaşan, həmkarlar ittifaqları ideologiyasına sadiq olan yoldaşlarını seçsinlər.

Seçkinin saxtakarlıq olmadan keçirilməsi həmkarlar ittifaqının təşkilatçılıq funksiyasında əxlaq, ədalət siperidir.

Əvvəlki, məqalələr də qeyd olunduğu kimi razılaşdırılmış qərarla yuxarı orqana köçürmədən sonra, büdcəsində qalan maliyyə vəsaitini ilk təşkilat şəffaflıqla və tam sərbəst şəkildə istifadə etməlidir. İlk təşkilatda toplanan üzvlük haqqının çox hissəsi onun büdcəsində qalmalıdır. Qanunda nəzərdə tutulmuş funksiyaların yerinə yetirilməsi üçün büdcəsində lazımınca maliyyə vəsaiti olmalıdır. Belə olduqda ilk təşkilat güclü olur, siravi üzvlərin öz təşkilatlarına inamı artır.

İlk təşkilata inamı olmayan həmkarlar ittifaqı üzvləri hər bir məsələ üçün rayon, şəhər, respublika komitələrinə deyil, birbaşa Konfederasiyaya müraciət edirlər. Belə hallar həmkarlar ittifaqlarında işin düzgün qurulmamasının nəticəsidir. Konfederasiyanın formalaşmış aparatı Nizamnaməyə müvafiq surətdə fəaliyyət göstərir, vergi qanunvericiliyinin dəyişməsinə, büdcələrin formalaşmasına, qiymətlərə, kommunal xidmətlərinə dair tariflərə, aylıq məvacibin vaxtında ödənilməsinə, işçilərin ixtisara salınması hallarına və "öz arzuları ilə"işdən azad olunmalarına və s. qanunda nəzərdə tutulmuş məsələlərə prinsipial nəzarət və bilavasitə bu proseslərdə iştirak etməlidir.

Götürək 2023-2025-ci illər üçün imzalanmış Baş Kollektiv Sazişə əsasən "Sosial tərəfdaşlıq haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi üçün görüləcək işləri. Həmkarlar ittifaqları hərəkatında sosial tərəfdaşlığın genişlənməsi üçün bu qanunun qəbuluna ciddi ehtiyac vardır. Göründüyü kimi Konfederasiyanın görəcəyi işlər çoxdur. Ona görə də həmkarlar ittifaqlarının hər bir təşkilat qurumu öz vəzifəsini yerinə yetirməlidir. Hər hansı təşkilati və struktur dəyişikliklərin aparılmasında mütləq ilk təşkilatların rəyi nəzərə alınmalıdır. Əks halda həmkarlar ittifaqlarının işində nüfuz motivi olmaz. Son zamanlar həmkarlar ittifaqı təşkilatlarının loqoları dəyişdirilib. Loqo hazırlamaqda məqsəd təşkilatın fəaliyyət istiqamətini düzgün şəkildə təsvir etməkdir. Loqo o halda dəyişir ki, fəaliyyət növündə, istiqamətində dəyişiklik olsun. Bunlar olmadığı halda loqo dəyişilməz qalır. Burada maliyyə israfçılığı (yeni bayraqların, adların yazıldığı lövhələrin hazırlanması və s.) ilə bərabər ciddiyyət məsələsi də narahatçılıq doğurur. Təşkilatın, müəssisənin rəhbərinin dəyişməsinin loqoya heç bir aidiyyəti yoxdur!

Sanki, həmkarlar ittifaqlarında olan nöqsanların günahkarı loqolar imiş. Axı hər bir təşkilat əhatə etdikləri sahələrin həmkarlar ittifaqlarının beynəlxalq birliklərinin üzvü olmaqla onlarla sıx əlaqələr qurmuşlar. Loqolar artıq simvollaşmışdır. Bununla əlaqədar bir nəfəri günahlandırmaq düzgün olmaz. Hər bir həmkarlar ittifaqı lideri cavabdeh olduğu sahədə məsuliyyət daşıyır. Vaxtilə Ulu öndər Heydər Əliyev belə hallarla əlaqədar demişdir: "Bəzi həmkarlar ittifaqı komitələri öz funksiyalarını, hüquqlarını, fəaliyyət dairələrini aydın təsəvvür etmirlər." Məgər Ulu öndərin yaratdığı müasir Azərbaycanın həmkarlar ittifaqlarının fəaliyyətində, statusunda hər hansı dəyişiklik olub? Yox!

Ulu öndərin bir fikrini yada salım: "Hər bir şəxsin, hər bir təşkilatın, qurumun, siyasi partiyanın fəaliyyəti onun şüarları, çağırışları, nəzəri fikirləri ilə yox, onun əməli işləri ilə qiymətləndirilir."

Təəssüfki çoxluq elə hesab edir ki, həmkarlar ittifaqlarının başlıca vəzifəsi güzəştli yollayışlar və maddi yardımlar verməkdən ibarətdir.Bu sahədə həmişə haqlı-haqsız narazılıqlar yaranır. Əslində sanatoriya müalicəsi məsələsi həmkarlar ittifaqlarının funksiyalarına daxil olmamalıdır. 1960-cı ildə Sovet İKP MK və SSRİ Nazirlər Sovetinin birgə qərarı ilə zəhmətkeşlərə xidmət üçün sanatoriya-kurort müəssisələrinin idarə edilməsi həmkarlar ittifaqlarına həvalə edilmişdir. Həmin dövr bu məqbul hesab olunurdu, çünki, yuxarıda qeyd etdiyimiz kimi həmkarlar ittifaqları müstəqil deyildir, Kommunist partiyasının bir qolu idi. Bu kimi məsələlərə görə inkişaf etmiş ölkələrin həmkarlar ittifaqları çox vaxt SSRİ-də həmkarlar ittifaqları ilə əlaqələrdən imtina edirdilər. Ümumiyyətlə respublikamızda sanatoriya-müalicə işi ilə həkimlər məşğul olur. Ona görə də bu işə ümumilikdə respublikamızın Səhiyyə Nazirliyi rəhbərlik etməsi daha məqsədəuyğundur. Çünki, Səhiyyə Nazirliyi bilavasitə kurort fondunun dövlət uçotunu aparır, kurort amillərindən səmərəli istifadə yollarını araşdırır, üsullar müəyyənləşdirir. Ona görə hesab edirəm ki, həmkarlar ittifaqına yalançı, "kommunizm məktəbi" kimi baxan SSRİ hökümətinin qərarından imtina edib sanatoriya-müalicə işi Səhiyyə Nazirliyinin tabeliyinə verilməlidir. Bu məsələ vaxtaşırı Sovet dövrü SSRİ məkanında və müstəqillik illərində bizim respublikamızda da qaldırılmışdır. Azərbaycan həmkarlar ittifaqı təşkilatlarını daha da mübariz və müasir tələblərə cavab verən təşkilat kimi görmək istəyən Azərbaycan Prezidenti cənab İlham Əliyev də həmkarlar ittifaqlarının dünya təcrübəsindən faydalanaraq işlərin yenidən qurulmasını vacib hesab edir. Hesab edirəm ki, həmkarlar ittifaqına doğma olan peşəkarlar bu barədə öz fikirlərini bildirməlidirlər.

Qaldı ki, maddi yardım və ərzaq paylamaq məsələsi. Bu da həmkarlar ittifaqının funksiyalarına aid deyil. Aydın məsələdir ki, xeyirxahlıq bizim xalqımıza xas olan keyfiyyətlərdəndir. Lazım gələndə həmkarlar ittifaqları xeyriyyəçilik edir. Amma çox təəssüf olsun ki, çox zaman vətəndaşlar səhv olaraq elə hesab edir ki, bu iş həmkarlar ittifaqlarının borcudur. Konstitusiyamızda deyildiyi kimi Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır. Həmkarlar ittifaqlarının borcu, vəzifəsi "Həmkarlar ittifaqları haqqında" 24 maddədən ibarət Azərbaycan Respublikasının Qanununda göstərilən hüquq və vəzifələri ciddi şəkildə həyata keçirməkdən ibarətdir. Bunun üçün respublikamızda həmkarlar ittifaqları zəruri vasitələr və mexanizmlərə malikdir. Burada əsas vəzifə ondadır ki, qanunvericilik məkanında hərəkət etməyi öyrənməli, qanunlardan bacarıqla və səmərəli istifadə etməli, inzibati-amirlik sistemini xas olan avtoritar idarəetmə üslubuna yol verməməli, nizamnamə qaydaları pozulmamalıdır. Bu tələblərə ciddi əməl edilsə həmkarlar ittifaqları özünə layiq nüfuza sahib olar.

# Ərzaq təhlükəsizliyi: Problemlər, nailiyyətlər, perspektivlər

***Son illərdə bəzi ərzaq məhsullarının qiymətlərinin davamlı bahalaşması müşahidə olunur. Bunun bir neçə səbəbi var. Bəzən deyirlər ki, dünyadakı vəziyyətlə bağlıdır. Lakin bu yeganə arqument deyil. Biz görürük ki, dünyada bəzi məhsulların qiyməti ucuzlaşır, amma bizdə ucuzlaşmır. Digərləri isə deyirlər ki, yerli istehsalın azalması ilə bağlıdır. Lakin görürük ki, yerli istehsalı azalmayan məhsullarda bahalaşma var. Ümumilikdə ərzağın bahalaşması daha çox iki səbəblə- xarici və daxili amillərlə bağlıdır. Yəni, səbəblər birtipli deyil, fərqli səbəblər var və hamısının burada rolu var.***



Bir-bir baxaq. Ümumiyyətlə, dünyada gedən proseslər, iqlim dəyişiklikləri, quraqlıq və sair proseslər ərzaq istehsalını azaldır. Bu bütün ölkələrdə qiymətlərə təsir göstərir. Bəzi ölkələrdə bu yeganə səbəbdir. Lakin bizdə yeganə səbəb bu deyil. Bizdə bu həm də subyektiv səbəblərlə - korrupsiya amili, monopliya məsələləri, sahibkarlara, fermerlərə müxtəlif maneələr və s. ilə bağlıdır.

Azərbaycanda əhalinin ərzaq təminatı 50 faizdən artıq idxaldan asılıdır. Bəzi ərzaq məhsullarında isə bu rəqəm 70-80 faizə çatır. Yerli isatehsal ölkənin tələbatının yarısını belə ödəmir. Halbuki, Azərbaycanda kənd təsərrüfatı ilə əhainin 40 faizə qədəri məşğul olur.

İldən-ilə bir çox məhsullar üzrə idxal artır, istehsal azalır. Bu, heyvandarlıq, bitkiçilik və digər sahələrə də aiddir. Nəticədə də, idxaldan asılılığımız bahalaşmaya səbəb olur.



İkinci səbəb, sahibkarlara, fermerlərə, əkinçilərə yaradılan maneələrdir. Məsələn, bir çox rayonlarda suvarma işi yaxşı təşkil olunmayıb deyə su ilə bağlı problemlər var. Heyvandarlar üçün örüş yerləri problemi var, yemin qiyməti də bahalaşır.

Bundan əlavə, kəndlilərin öz məhsullarını rahat şəkildə bazara çıxarması təmin olunmadığına görə, sahələrdə 20-30 qəpiyə alınan məhsul paytaxtada, iri şəhərlərdə 1-2 manata satılır. Yəni, məhsulu əkib-becərən yox, dəllallar, bazarları zəbt etmiş alverçilər qazanır. Bu halda istehsalçı da, istehlakçı da uduzur, ortada qazanan dəllallardır. Kəndli məhsulunu yerində 20 qəpiyə satır, mən burda 1 manata alıramsa, ortadakı 80 qəpiyi dəllallar qazanır.

Bundan başqa, istehsalçılara qarşı müxtəlif maneələr, əngəllər, bürokratik yanaşma amilləri var.Bu səbəbdən də, aqrar sektora milyardlarla pul ayrılsa da, bu sahədə ciddi irəliləyiş yoxdur. Halbuki, öz potensialına görə, Azərbaycanda neftdən sonra ən gəlirli sahə aqrar sektor olmalıdır. Aqrar sahə həm də yüngül və yeyinti sənayesi deməkdir. Təəssüf ki, biz bu sənaye sahələrini arzuolunan səviyyəyə qura bilməmişik və məhsulları daha çox xammal şəklində ixrac edirik.

Məsələn, pambıq məhsulunu emal edə bilmirik, xammal kimi ucuz qiymətə xaricə satırıq, oradan da dayanmadan hazır məhsullar idxal edirik. Nəticədə, özümüzdə 5 manata başa gələsi məhsulu xarici ölkədən 15-20 manata alırıq. Burda milyardlarla pul itiririk. Bu, digər sahələrə də aiddir.

Məhsulun maya dəyərinin artmasına da bir neçə amil təsir edir. Son illərdə suyun, bitkiçilik və heyvandarlıq üçün dərmanların, yanacağın qiyməti artıb. Təbii ki, bu da bütün istehsalçılara zərbə vurur. Həm də məhsulların maya dəyərini artırır.



Əlavə olaraq, bazarda tələb-təklif məsələsi də var. Tələb təmin olunmursa, qiymətlər bahalaşır. Ona görə də yeganə şərt məhsul bolluğunun təmin olunmasıdır . Məhsul bolluğununu da idxalla təmin etmək doğru deyil. Birincisi, ölkə bazarına mənşəyi məlum olmayan keyfiyyətsiz məhsullar gəlir. İkincisi, ölkədən küll miqdarda valyuta çıxır. Üçüncüsü, bizim yerli istehsalçı sıradan çıxır, bazarlar xarici məhsulla dolur. Bunların hamısı ölkə iqtisadiyyatına zərər vurur, insanları işsiz, torpaqlarımızı istifadəsiz qoyur.

Ölkəmizdə aqrar siğorta sistemi də işləmədiyinə görə fermerlər bir çox hallarda zərərə düşür. İnsanlar əziyyət çəkib, hektarlarla yerdə əkin-biçin edir. Son nəticədə, əldə etdiyi gəlir xərcləri ödəmir. Və gələn il əkmək istəmirlər. Artıq bu sahə sıradan çıxır. Nəticədə həmin məhsullar xaricdən gətirilir. Halbuki, bizim ele potensialımız var ki, Azərbaycan öz əhalisini tam şəkildə bütün ərzaq məhsulları ilə təmin edə bilər. Əlavə olaraq da böyük ixrac imkanlarımız var. Sadəcə, Kənd Təsərrüfatı Nazirliyi aqrar sahədə düzgün stimullaşdırma aparmır, düzgün proqramlar yerinə yetirmir. Baxmayaraq ki, milyardlarla dövlət vəsaiti ayrılır. Deməli, bu sahədə idarəetmədə problem var.

Ölkədə bolluq və ucuzluq yaratmağın çox sadə üsulu var. Bunun üçün bütün ölkə boyu daimi yarmarkalar təşkil olunmalıdır. Bakı şəhərində 10, Gəncə, Sumqayıt şəhərlərində 2 yerdə, digər şəhərlərdə 1 yerdə ilin 365 gün daimi yarmarkalar olmalıdır. Bu yarmarkalara ancaq öz məhsulunu istehsal edən kəndlilər, sahibkarlar, fermerlər buraxılmalıdır. Bu halda onlar öz məhsulunu sahədə 20 qəpiyə deyil, orada 60 qəpiyə satacaq, 3 qat gəlir əldə edəcək. Biz də alıcı olaraq 1,2 manata yox, 60 qəpiyə almış olacağıq. Deməli, biz burda 2 dəfə də irəli düşürük, dəllallar isə ortadan çıxır. Nəticədə, öz məhsulundan yaxşı gəlir əldə edən sahibkarlar, fermerlər, əkinçilər gələn il daha çox məhsul istehsal etməyə çalışacaq, öz imkanlarını genişləndirəcək. Texnika alacaq, daha çox işçilər tutacaq, çalışacaq ki, çox məhsul istehsal etsin.

Aqrar sektorda məhsul azalması sənayeyə də zərər vurur. Çünki yeyinti sənayesi, yüngül sənaye artıq təmin olunmur. Biz niyə duru yağları Rusiyadan, Ukraynadan almalıyıq?! Özümüzdə qarğıdalı, zeytun, günəbaxan bitmir? Biz niyə konservləşdirilmiş məhsulları, məsələn adicə tomatı xarici ölkədən idxal etməliyik? Pomidorumuz yoxdur? Eləcə də davamlı olaraq ətin qiyməti qalxır. Niyə? Çünki heyvandarlıqda da maya dəyəri artıb, örüşlər azalıb. Bu kimi məsələlər ətin qiymətinin bahalaşmasına gətirib çıxarır. Nəticədə ərzağın bahalaşması baş verir.

Hazırda mövsümlə bağlı bir çox kənd təsərrüfatı məhsulalrının, xüsusən də meyvə-tərəvəzin qiymətində ciddi ucuzlaşmalar qeydə alınıb. Bu il bu məhsullar boldur. Digər bir sıra məhsullarda da bolluq yaranıb. Son illərdə həyata keçirilən bəzi dövlət tədbirləri bu istiqamətdə müəyyən müsbət irəliləyişlərin baş verməsinə səbəb olub. Lakin bu da potensiala adekvat deyil. Azərbaycanın potensialı mövcud həcmlərdən dəfələrlə artıqdır.

Ərzaq istehsalını artırmaq üçün böyük dövlət qroqramı qəbul olunmalıdır. Ölkə əhalisinin yarısı Bakı və Abşeron zonasına yerləşib. Dövlət elə siyasət yürütməlidir ki, şəhərlərə axışmış əhali geri qayıtsın, orada iş yerləri ilə təmin olunsun, təssərrüfatlar yaratsın, heyvandarlıqla məşğul olsun, əkin-biçin etsinlər. Regionlarda kiçik istehsal sexləri təşkil olunmalıdır.

Bundan əlavə, insanlara güzəştli şərtlərlə kredit verilməlidir ki, gedib özünə iş yaratsın. Nəticədə, əhali bir yerə doluşmaz, Bakının da yükü azalar. Regionlarda da iqtisadi aktivlik olar. Məşğulluq məsələsi aradan qalxar. Xaricə çıxan valyutamız azalar. Dövlətin sosial yükü də azalar. Bu halda ünvanlı sosial yardım verməyə də ehtiyac qalmayacaq, insanlar özləri qazanacaq.

***Elçin Bayramlı***

# "Tarix boyu Azərbaycan əsgəri öz şərəfli adını ləyaqətlə qoruya bilmişdir"

"Şimali Azərbaycanın müstəqil xanlıqları XIX əsrin ilk 30 ilində çar Rusiyası tərəfindən işğal olundu. Xanlıqların orduları ləğv olundu, silah-sursatları isə müsadirə edildi. Çar üsul-idarəsi XIX əsrin 70- ci illərində müsəlmanların, o cümlədən azərbaycanlı əhalinin hərbi xidmətə çağırılmasını dayandırdı, hərhi xidmət hərbi mükəlləfiyyətlə əvəz olundu". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Anar İsgəndərov deyib. O bildirib ki, 1917-ci il Fevral burjua inqilabından sonra Cənubi Qafqazda acınacaqlı bir mənzərə üzə çıxdı: "Rus ordusunun tərkibində kifayət qədər erməni və gürcü əsgər və zabiti xidmət etdiyi halda,azərbaycanlılar haqqında bunu demək mümkün deyildi. Azərbaycanın milli-demokratik qüvvələri Rusiyafa Kerenskinin rəhbərlik etdiyi Müvəqqəti hokumətə milli qoşun hissələrinin yaradılmasına icazə verilməsi ilə bağlı müraciət etsə də Hökumət bu işi 1917-ci ilin sentyabrın sonuna kimi ləngitdi.

1917-ci ilin iyulunda Gəncədə Müsəlman Milli Komitəsinin koməyi ilə 150 nəfər gəncə hərbi işin verdişlərinin öyrədilməsinə başlandı. Gəncə ilə yanaşı milli qüvvələrin təşkili Lənkəranda da həyata keçirilməyə başladı. Bakıda bu işi həyata keçirmək mümkün olmadı.Çunki Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti qüvvələri Erməni Milli Şurası və Daşnaksutun partiyası ilə birləşərək milli qüvvələrin yaradılmasına imkan vermirdi.

1917-ci ilin dekabrında Zaqafqaziya Komissarlığının qərarı ilə Müsəlman Korpusu yaradıldı. Korpusun komandiri general-leytenant Əliağa Şıxlınski təyin olundu.Müsəlman Korpusunun qərərgahı Tiflisdə yerləşirdi. Milli qoşun hissələrinin təşkilində və təchizində Milli burjuaziyanın nümayəndələri H.Z.Tağıyev, M.Nağıyev və başqaları yaxından iştirak edirdi.

Müsəlman milli hissələrinin yaradılması işində qarşıya çoxlu çətinliklər çıxırdı.Ən böyük çətinlik kadr və səfərbərlik məsələsi idi. Azərbaycanlı zabitlərin olmaması məsələni xeyli çətinləşdirirdi. Korpusun zabitlərinin əksəriyyətini ruslar təşkil edirdi. Məsələnin qismən həll edilməsi üçün Bakıda kadet məktəbində müsəlman ictimai təşkilatlarının təşəbbüsü ilə milli zabit kadrlarının hazırlanmasına başlanıldı. Müsəlman Milli Korpusunda general-leytenant Ə.Şıxlınski ilə yanaşı general Talışınski, general Mençukov, polkovnik S.Əfəndiyev, polkovnik Tlexas, polkovnik Qaytabaşı, polkovnik Əmənulla Mirzə Qacar, polkovnik Hacıbəyli kimi zabitlər qulluq edirdilər. 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurasının üzvləri Müsəlman Şərqində ilk Cümhuriyyətin yaradılmasını elan etdilər. Gəncəyə köçən hökumət iyunun 26-da Müsəlman Korpusunun Əlahiddə Azərbaycan Korpusu adlandırılması haqqında qə-



rar verdi. Beləliklə, Milli Azərbaycan ordusu təşkil edildi.

1918-ci il iyunun 4-də Azərbaycan hökuməti ilə Osmanlı dövləti arasında Batum müqaviləsi imzalandı. Müqavilənin 4-cü bəndinə uyğun olaraq Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz-İslam Ordusu Azərbaycanın köməyinə gəldi. Milli ordu hissələri ilə Qafqaz-İslam Ordusu ümumi düşmənə qarşı vahid qüvvə şəklində birləşməyə müvəffəq oldular. Gəncədən başlanan mücadilədə Türk-Azərbaycan qoşunları ilə Bakı Soveti qüvvələri arasında həlledici döyüş Qaraməryəm ətrafında baş verdi.Dörd gün davam edən döyüş Milli qüvvələrin qələbəsi ilə başa çatdı.Düşmən qüvvələri Şamaxı, Ağsu, Kürdəmir və Salyandan çıxarıldı. Sentyabrın 15-də Bakı düşmən qüvvələrindən azad edildi. Milli Hökumıt Gəncədən Bakıya köçdü. Beləliklə, Bakı öz tarixində ilk dəfə olaraq bütün Azərbaycanın paytaxtına çevrildi.

Ordu quruculuğu böyük çətinliklərlə üz-üzə idi. Gənclər hərbi xidmətin mahiyyətini dərk etməkdə çətinlik çəkirdilər.Gənclər arasında vətənpərvərlik ruhunda təbliğatın aparılmasına ehtiyac var idi. Orduya çağırılan əsgər kazarma həyatına öyrəşə bilmirdi. Fərarilik adi hal almışdı. Silah və sursat yox dərəcəsində idi. 1918-ci ilin sonlarında ingilis jurnalisti Karl Liddel yazır ki, Bakıda kazarmada tərcüməçinin köməyi ilə əsgəri danışdırmaq istədim.Kövrələn əsgər doğulduğu kəndi üçün darıxdığını dilə gətirdi. K. Liddel yazır ki, 1919-cu ilin aprelində həmin kazarmada başqa mənzərənin şahidi oldum. Əsgərlər hərbi marşı əzbərləməklə məşğul idilər. Soruşanda ki, məqsədin nədir? Əsgər fikirləşmədən: Qarabağı düşməndən azad etmək. Başa düşdüm ki, Azərbaycan əsgəri yavaş-yavaş döyüşən orduya çevrilir.

Milli ordu hissələri Bakını və Qarabağı düşmən qüvvələrindən təmizlədikdən sonra sırada Lənkəran dayanırdı. Hələ 1918-ci ilin avqustunda bu bölgə ilə heç bir əlaqəsi olmayan millətçi rus zabitləri Molokan qiyamını həyata keçirdilər. Ona görə də Azərbaycan ordusunun qarşısında duran əsas məsələ bu bölgədə qiyamı yatıraraq Milli hökumətin idarəçiliyinin bərpa edilməsinə nail olmaq idi. Qiyamçıların qurudan və dənizdən hərtərəfli yardım almasına baxmayaraq, 1919-cu ilin avqustunda düşmən darmadağın edildi, bölgədə əmin-amanlıq bərpa olundu. Erməni təcavüzünə qarşı mübarizədə Azərbaycan ordusu böyük qəhrəmanlıqlar göstərə bildi. Qısa müddət ərzində Qarabağda ermənilərin pozuculuq fəaliyyətinə son qoyan milli ordu hissələri 1919-cu ilin avqustunda ermənləri Azərbaycan idarəçiliyini qəbul etməyə məcbur etdilər.

1918-1920-ci illərdə fəaliyyət göstərən Cümhuriyyətin ən uğurlu işlərindən biri Milli Ordu quruculuğu olmuşdur. Qısa zaman kəsiyində 40 minlik bir ordunun yaradılması böyük siyasi hadisə idi. 20-ci ilin aprel işğalı Cümhuriyyətin əldə etdiyi bütün uğurları ləğv etdi. Ən böyük zərbə Milli ordu hissələrinə vuruldu. 1939-1945-ci illər II dünya müharibəsi illərində milli Azərbaycan diviziyaları təşkil edildi. Bu diviziyaların faşizmə qarşı qəhrəmanlığı haqqında yüzlərlə əsərlər yazılıb. Bir sözlə, tarix boyu Azərbaycan əsgəri öz şərəfli adını ləyaqətlə qoruya bilmişdir. 1991-ci ildə Azərbaycan yenidən dövlət müstəqilliyini bərpa etdikdən sonra milli ordu quruculuğu əsas məsələyə çevrildi.Erməni siyasi dairələri qərb dövlətlərinin hərbi yardımından istifadə edərək Azərbaycan torpaqlarının 20 faizini işğal etdi. Bu gün güclü bir Azərbaycan dövləti və bu dövlətin güclü bir ordusu var.Bu ordu xalqımızı qalib xalqa,Vətənimizi qalib dövlətə çevirdi. 2020-ci ilin 44 günlük Vətən Müharibəsindən sonra Azərbaycan xalqı qalib əsgəri ilə öyünür, onun qəhrəmanlığı ilə fəxr edir. 2023-cü ilin sentyabrında düşməni darmadağın edən ordumuz bir günlük antiterror əməliyyatı ilə yüz il ərzində Qarabağda separatçı yuvası kimi tanınan Muxtar qurumu tarixdən sildi və Azərbaycanın suverenliyini bərpa etdi. Şanlı Azərbaycan əsgəri öz zəfəri ilə 26 iyun gününü qaliblərin bayramına çevirdi. Qalib Azərbaycan, Silahlı Qüvvələr gününün mübarək!"



***Söylü Ağazadə***



# SOS: İnformasiya zombifikasiyası

**Elçin Bayramlı**

***İnformasiya bolluğu ortalığın saxta məlumatlarla dolmasına səbəb olur. Xüsusən də, gənc nəslin sosial şəbəkələrdən istifadə etməsi və bütün məlumatları buradan alması, onların səhv məlumatlanmasına gətirib çıxarır. Müasir gənclər peşəkar mənbələrdən (mediadan, rəsmi orqanlardan və s) məlumat almaqdan qəti şəkildə imtina edir, onlayn platformalara üstünlük verirlər. Belə ki, statistikaya görə, gənclərin yalnız 1-2 faizi peşəkar Azərbaycan və dünya mediasını izləməkdə davam edir.***

Beləliklə, böyük bir kütlədə sosial şəbəkələrdə yayılan məlumatlar əsasında fikir formalaşır. Artıq ciddi mənbələrdən istənilən məlumatı öyrənmək, elmi məqalələr, kitablar oxumaq heç kimi maraqlandırmır. Əminliklə demək olar ki, gənclər arasında siyasi, sosial-iqtisadi, elmi mövzularda debatlara, tok-şoulara, diskussiya proqramlarına baxmaq sıfıra enib. Bu gün yeniyetmələri və gəncləri ancaq trenddə olan materiallar və sosial şəbəkələrdəki söhbətlər- kiminləsəsə yazışmalar maraqlandırır və bu, çox acınacaqlı haldır.

Nəticədə osial şəbəkələrdə nəzarətsiz informasiya istehlakı səbəbindən gənclərdə tarixi, siyasi və sosial hadisələr haqqında təhrif olunmuş təsəvvür formalaşır. Problemin ciddiliyinə baxmayaraq, cəmiyyət hələ də buna lazımi diqqət yetirmir.

Gənclər aktual informasiyaları tez almağa çalışır, onun obyektivliyinə çox əhəmiyyət vermirlər. Beləliklə, biz onları ciddi mənbələrə yönəldə bilmirik. Uşaq və yeniyetmələrin tərbiyəsində ailənin və məktəbin rolu praktiki olaraq arxa plana keçir. Gənc nəslin psixologiyası internetdə formalaşır.

Əyləncəli məzmun, şou və şübhəli məzmunlu materiallar dünyasına getdikcə daha çox qərq olan müasir gənclər arasında daha bir narahatedici tendensiya diqqət çəkir. Belə ki, internet məkanı milli mənəvi dəyərlərə xələl gətirən psixoloji təzyiq və təbliğat elementləri ilə doludur.

Təhsil, elm, mədəniyyət və mənəvi inkişaf arxa plana keçir. Təsirə düşən və asan yolla sürətli varlanmaq imkanları axtaran gənclər qumara və əyləncəyə üstünlük verirlər. Erkən yaşdan təbii ünsiyyətdən uzaqlaşma varyalnız virtual əlaqələr və münasibətlər qalır. Yeniyetmələr virtual aləmə effektiv şəkildə keçirlər və onların real həyatı praktiki olaraq yox olur. Başqaları ilə birbaşa şəxsi əlaqə minimuma enir. İnsanlarla görüşlər yalnız dostlarla, qohumlarla ünsiyyətdə olur. Bu gün məcburi sosiallaşma yerləri sayılan təhsil müəssisələri və iş yerlərində belə virtual əlaqələr çoxalır..

Nəticədə gənc nəsil reallıqla əlaqəni itirir. Belə şəraitdə böyüyən yeniyetmələr daha eqoist şəxsiyyətlər kimi formalaşırlar.

Müasir insanlar getdikcə daha çox tənhalığı seçir, həyatlarını sosial şəbəkələrdə cəmləşdirirlər. Bununla belə, texnoloji tərəqqi həyatın virtual məkana tam köçürülməsi demək olmamalıdır. Texnologiyalar işləmək, bilik və faydalı məlumat əldə etmək üçün yaradılır və onlardan ağlabatan hədlər daxilində istifadə edilməlidir.

Virtual aləmə həddən artıq qərq olmaq istər-istəməz ciddi psixoloji problemlərə gətirib çıxarır. Bu, psixologiyası və dünyagörüşü əvvəlki nəsillərdən köklü şəkildə fərqlənən uşaq və yeniyetmələr üçün xüsusilə təhlükəlidir.

İndiki gənclik zombiləşmiş şüurla böyüyür. Ona görə də valideynlər və bütövlükdə cəmiyyət uşaqların real həyatda inkişafı üçün imkanlar yaratmalıdır. Yetkinlik yaşına çatmayanların asudə vaxtlarını keçirmələri üçün əlçatan infrastruktur - yaradıcılıq mərkəzləri, idman məktəbləri, klublar yaratmaq lazımdır. Bu, gənclərin real həyata marağını qaytarmağın yeganə yoludur. Gənc nəsil real həyatda daha çox vaxt keçirməli və sosial şəbəkələrdə mümkün qədər az vaxt keçirməlidir. Bir çox ailələrin övladlarının müxtəlif dərnəklərə, seksiyalara getməsi üçün pul ödəməyə imkanı yoxdur, nəticədə valideynlər yeniyetmələrə, hətta balaca övladlarına smart telefon verməyə təlsirlər. Bütün bu yanaşmalar ciddi təhlükədən xəbər verir və bu haqda düşünmək lazımdır. Əgər bir millət olaraq qalmaq istəyiriksə, uşaqlarımızı da milli mənəvi dəyərlər, milli mədəniyyətimiz və irsimizlə böyütməliyik. Əks halda assimilyasiyaya məruz qalıb tarix səhnəsindən silinə bilərik.

# Ermәni vәhşiliyi cәzasız qala bilmәz



Dünya durduqca bәşәriyyәtdә baş vermiş bir sıra ictimai, siyasi hadisәlәr, müharibә vә münaqişәlәr unudulmayacaq. Daim insanlığa vә bәşәriyyәtә böyük fәlakәtlәr gәtirmiş hadisәlәr araşdırılacaq vә ibrәt dәrsi olaraq cәmiyyәtlәrә çatdırılmasına çalışılacaq. Tәbii ki, ermәnilәrin son iki yüz ildә azәrbaycanlılara qarşı törәtdiyi vandalizm aktlarını heç bir bәşәr övladı unuda bilmәz, yaddaşlardan da silmәk mümkün deyil. Ermәnilәrin 1905-1906-cı illәrdә, habelә 1918-1920-ci illәrdә İrәvanda, Dәrәlәyәzdә, Zәngәzurda, Göyçәdә, Naxçıvanda, Bakıda, Gәncәdә, Lәnkәranda, Şamaxıda, Qubada, Qarabağda vә digәr әrazilәrdә törәtdiyi vәhşiliklәr nәticәsindә on minlәrlә insan öldürülmüş, minlәrlә şәhәr, kәnd vә qәsәbә dağıdılmışdır. Tam şәkildә sübuta yetirilib ki, ermәnilәrin qaniçәn әmәllәri mәhz faşizmә xas olan terrorçuluq siyasәtidir. Ermәnilәr faşizmә xas olan terrorçuluq siyasәtini ötәn әsrin sonlarında daha amansız vә vәhşi formada davam etdirmişlәr. Nәticәdә Azәrbaycanın Şuşa, Xankәndi, Laçın, Kәlbәcәr, Ağdam, Cәbrayıl, Füzuli, Qubadlı, Zәngilan kimi şәhәrlәri, rayonları, kәnd vә qәsәbәlәri dağıdılmış, mәdәniyyәt nümunәlәri, tarixi abidәlәri, mәscidlәr, mәdrәsәlәr, mәbәdlәr yerlә-yeksan edilmişdir. Ermәnilәrin torpaqlarımızı işğal etmәsi nәticәsindә 1 milyondan artıq vәtәndaşımız ata-baba yurdlarından zorla didәrgin salınmış, 20 minә qәdәr azәrbaycanlı qәtlә yetirilmiş, 50 mindәn çox adam әlil oldu, 4 min 121 nәfәr azәrbaycanlı isә itkin düşdü vә onların taleyindәn bu günә kimi mәlumatlar yoxdur.

## Dünyanın tanınmış jurnalistlәri Xocalıda ermәnilәrin törәtdiyi vәhşiliklәrdәn sarsıldıqlarını bәyan ediblәr

1992-ci il fevralın 25-dәn 26-a keçәn gecә ermәnilәr Xocalı şәhәrindә tarixin әn böyük soyqırımını hәyata keçirdilәr. Xocalıda törәdilәn dәhşәtli vәhşiliklәr nәticәsindә müasir dövrün әn gözәl şәhәrlәrindәn bir olan Xocalı şәhәri mәhv edildi, evlәr talan edildi, yandırıldı, 613 nәfәr dinc әhali, o cümlәdәn 63 azyaşlı uşaq, 106 qadın vәhşicәsinә öldürüldü, 487 nәfәr şikәst oldu, 1275 nәfәr әsir götürülәrәk ağlasığmaz işgәncәlәrә, tәqiblәrә mәruz qaldılar. O zaman Rusiyanın "İzvestiya" qәzetinin müxbiri törәdilnәn ermәni vәhşiliyindәn sarsıldığını yazmış, gözü ilә gördüyü hadisәni belә qeyd etmişdir: "Ağdama dayanmadan meyitlәr gәtirilirdi. Tarixdә belә şeylәr görünmәmişdi. Meyitlәrin gözlәri çıxarılmış, qulaqları vә başları kәsilmişdi. Bir neçә meyit zirehli maşınlara qoşularaq sürüklәnmişdi. İşgәncәlәrin hәddi-hüdudu yox idi".

Nüfuzlu "The Geopolitics nәşrinin saytında yayımlanan" "Xocalı soyqırımını anarkәn: Müasir tarixin әn qanlı soyqırımlarından biri" sәrlövhәli mәqalәdә ağır artilleriya, pulemyot vә qumbaraatanlarla silahlanmış Ermәnistan qoşunlarının 1992-ci il fevralın 25- dәn 26-na keçәn gecә Xocalı şәhәrinә qanlı hücumu nәticәsindә azәrbaycanlı mülki şәxslәrin, o cümlәdәn 106 qadın, 63 uşaq vә 70 qocanın qәtlә yetirildiyini bildirilib.

İtaliyanın nüfuzlu "İl Sole 240 re" televiziya kanalı Xocalı soyqırımı barәdә mәlumat verib. 613 günahsız insanın ermәni hәrbi birlәşmәlәri tәrәfindәn xüsusi amansızlıqla qәtlә yetirildiyini bildirib.

Pakistanda yayımlanan "Daily Times"qәzetindә dәrc olunan mәqalәdә Ermәnistan ordusunun Xocalı şәhәrindә günahsız insanları xüsusi amansızlıqla qәtlә yetirmәsi barәdә mәlumat verilib. 1992-ci ildә Azәrbaycan Qarabağ bölgәsindәki Xocalı şәhәrindә ağır qәtliam törәdilib. Bu faciә zamanı 613 günahsız insan, o cümlәdәn uşaqlar vә qadınlar ermәni silahlı birlәşmәlәri tәrәfindәn vәhşicәsinә qәtlә yetirilib, yüzlәrlә insan girov götürülüb. Ermәni cәlladları 7 mindәn çox insanı bir gecәdә doğma evlәrindәn zorla qovub çıxarıblar. Mәqalәdә 2020-ci il sentyabrın 27-dә başlayan vә 44 günlük davam edәn Vәtәn müharibәsindә Ermәnistan Silahli qüvvәlәrini darmadağın edәrәk torpaqlarını işğaldan azad edәn Azәrbaycan ordusu şәhidlәrin, o cümlәdәn Xocalı soyqırımı qurbanlarının da qisasını aldığı vurğulanıb.

Hindistanın "amarujala .com"saytında yer alan mәqalәdә bildirilib ki, Xocalı soyqırımı bәşәr tarixindә әn qanlı vә amansız cinayәtlәrdәn biridir. Ermәnilәr beynәlxalq humanitar hüquqa vә müvafiq konvensiyalara mәhәl qoymayaraq 613 mülki şәxsi o cümlәdәn 106 qadın, 63 uşaq, 70 qocanı xüsusi amanasızlıqla qәtlә yetiriblәr. Bu qırğında 8 ailә tamamilә mәhv edilib, 25 uşaq hәr iki valideynini, 132 uşaq isә valideynlәrindәn birini itirib. Qәtliam nәticәsindә 487 nәfәr ağır yaralanıb. 1275 nәfәr girov götürülüb ki, onlardan 150 nәfәrin taleyi hәlә dә mәlum deyil.

## Azәrbaycana qarşı ikili standartlar

30 illik işğal dövründә ermәnilәrin törәtdiyi vandal әmәllәrә bәzi aparıcı dövlәtlәrin, beynәlxalq tәşkilatların susqunluq nümayiş etdirmәsi ikili standartların nümunәsidir. Bu, hәm dә onu tәsdiq edir ki, ermәnilәrin işğal etdiklәri Azәrbaycan әrazilәrindә törәtdiklәri vandalizm aktlarında bәzi dövlәtlәrin birbaşa vә dolayısı yolla әllәri var. Hәtta araşdırmalarla sübut edilir ki, Qarabağdan oğurlanan, talan edilәn Azәrbaycanın mәdәni irsinin nümunәlәri Fransaya, Hindistana, Yunanıstana, ABŞ-a vә digәr ölkәlәrә daşınıb. Ermәni vәhşi toplumu Füzuli rayonunda Hacı Әlәkbәr mәscidi, Dәdәli, Merdinli, Gecәgözlü, Yuxarı Veysәlli kәnd mәscidlәri, Cәbrayıl rayonunda Süleymanlı vә Papı kәnd mәscidlәri, Qubadlı rayonunda Mәmәr vә Yusifbәyli kәnd mәscidlәri, Zәngilan rayonunda Zәngilan şәhәr mәscidi, Malatkeşin vә Zәngilan kәnd mәscidlәri, ümumilikdә 67 mәsciddәn 65-ni tamamilә mәhv edib, digәr 2-ni isә müxtәlif iyrәnc mәqsәdlәr üçün istifadә edib. Qaraağac qәbiristanlığında yerlәşmiş yerli әhәmiyyәtli memarlıq abidәsi olan Uğurlu bәyin türbәsi dә daxil olmaqla XIX әsrә aid 4 türbә tamamilә mәhv edilmişdir. Ağdam şәhәrindә yerlәşәn Pәnahәli xanın vә Mehdiqulu xanın türbәlәri dağıntılara mәruz qalmış, işğalçı Ermәnistan tәrәfindәn abidәlәrә ciddi ziyan dәymişdi. Şuşanın işğalı nәticәsindә azәrbaycanlıların tarixi izlәrini silmәk mәqsәdilә vandallar 600 yaxın tarixi memarlıq abidәsini, o cümlәdәn Pәnahәli xanın sarayını, Yuxarı Gövhәr ağa mәscidini, Aşağı Gövhәr ağa mәscidi, Xurşidbanu Natәvanın evini, Molla Pәnah Vaqifin mәqbәrәsini yerlә-yeksan etmiş, 7 mәktәbәqәdәr uşaq müәssisәsini, 22 ümumtәhsil mәktәbini, mәdәni-maarif, kәnd tәsәrrüfatı texnikumlarını, orta ixtisas musiqi mәktәbini, 8 mәdәniyyәt evinin, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlәdәn Şuşa Tarix Muzeyi, Azәrbaycan Xalça Muzeyinin filialı vә xalq tәtbiqi sәnәti muzeyi, Qarabağ dövlәt tarix muzeyi, turist bazasını, Qafqazda yeganә Şәrq musiqi alәtlәri fabrikini dağıtmış, buradakı nadir sәnәt incilәrini talamış vә mәhv etmişlәr.

## Ermәnistan beynәlxalq hüququ pozduğu üçün mütlәq cәzasını almalıdır

Ermәnistanın mәdәniyyәt obyektlәrinә, dini-mәdәni irsimizә qarşı bu cür vandalizm aktları bir çox beynәlxalq sәnәdlәrә, o cümlәdәn 1954-cü ildә Haaqada qәbul edilmiş "Silahlı münaqişә zamanı mәdәni sәrvәtlәrin qorunması haqqında Konvensiya"nın, "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasının, "Ümumdünya mәdәni vә tәbii irsinin mühafizәsi haqqında Konvensiya"nın müddәalarını kobud şәkildә pozmuşdur. Ermәnistan terrorçularının tәcavüzü nәticәsindә Şuşanın 25 mәktәbi, 31 kitabxanası, 17 klubu, 8 mәdәniyyәt evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mәdәniyyәt vә istirahәt parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azәrbaycan Xalçası Dövlәt Muzeyinin filialı, Şuşa Dövlәt Dram Teatrı, Şuşa Televiziyası, Şәrq musiqi alәtlәri fabriki, Dövlәt Rәsm Qalereyası, Uşaq sağlamlıq mәktәbi talan edilmiş, yandırılmış vә dağıdılmışdır.

Bununla yanaşı, işğala qәdәr Şuşada memarlıq abidәsi sayılan 170-dәn çox yaşayış binası vә 160-dәk mәdәniyyәt vә tarixi abidә var idi. Bunların içәrisindә son tunc vә ilk dәmir dövrü abidәsi sayılan Şuşa vә Şuşakәnd daş qutusu qәbirlәri, daş dövrü abidәsi olan Şuşa mağara düşәrgәsi, XVIII әsrә dair Şuşa qalasının divarları, Gәncә qapısı, Pәnah xanın sarayı vә kitabxanası, İbrahim xanın bürcü vә qәsri, Xan sarayı vә karvansaray, M.P.Vaqifin mәdrәsәsi vә türbәsi, Yuxarı mәscid mәdrәsәsi, Hacıqulların malikanәsi, İkimәrtәbәli karvansaray, Mehmandarovların malikanә kompleksi, Gövhәr ağa, Xoca Mәrcanlı, Hacı Abbas, Mәrdinli, Saatlı, Köçәrli mәscidlәri, Xurşidbanu Natәvanın evi vә bulağı, Ә.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nәvvabın, S.S.Axundovun, N.B.Vәzirovun, Y.V.Çәmәnzәminlinin evlәri, Mamay bәyin evi, mәscidi vә bulağı, Behbudovların, Fәrәmәzovların, Zöhrabbәyovun, Bәhmәn Mirzәnin evlәri, Üzeyir bәy Hacıbәylinin, Bülbülün ev-muzeylәri, Xan Şuşinskinin, Tarzәn Sadıqcanın evlәri, Qız mәktәbi, İsa bulağı vә s. tarixi mәdәniyyәt nümunәsi ermәni işğalçıları tәrәfindәn talan edilmiş, dağıdılmış vә mәhv edilmişdir. Bu vәhşilik, vandalizm ancaq ermәni terrorçularına xas xüsusiyyәtdir.

## Şuşa Qarabağımızın incisidir

XVIII әsrin ikinci yarısında Azәrbaycanın tarixi, mәdәni vә strateji әhәmiyyәtә malik şәhәri sayılan Şuşa özünün xalçası, ipәyi, parçası vә çini qabları ilә dünya bazarları miqyasına çıxmış vә bununla da böyük şöhrәt qazanmışdı. Bu dövrdә şәhәrdә çoxsaylı sәnәtkar mәhәllәlәri yaranır, ticarәt daha sürәtlә inkişaf edirdi. Hәlә XIX әsrin sonu vә XX әsrin әvvәllәrindә Şuşa Qafqazın musiqi mәrkәzinә çevrilmişdi. Şuşanı "Kiçik Paris", "Qafqazın sәnәt mәbәdi", "Azәrbaycan musiqisinin beşiyi" vә "Zaqafqaziyanın konservatoriyası" adlandırırdılar. Mәnbәlәrdә göstәrildiyi kimi, hәlә XIX әsrin ortalarından başlayaraq Şuşanın mәdәni hәyatında bir canlanma baş verib. Azәrbaycan dramaturgiyasının banisi M.F.Axundov öz komediyalarını geniş şәkildә yaymaq mәqsәdi ilә 1852-ci ildә teatr tamaşalarının intişar tapdığı Şuşa qalasına gәlәrәk, arzusunu reallaşdırıb. V.Şekspirin "Otello"su Azәrbaycanda ilk dәfә 1893-cü ildә şuşalı müәllim, dramaturq vә jurnalist Haşım bәy Vәzirov tәrәfindәn tәrcümә edilәrәk sәhnәlәşdirilib. Daha sonra C.Mәmmәdquluzadәnin "Ölülәr" tragi-komediyası ilk dәfә 1916-cı ildә Xurşudbanu Natәvanın qızı Xanbikәnin evindә yerlәşәn mәktәbdә tamaşaya qoyulmuşdu. XX әsrin әvvәllәrinәdәk Azәrbaycanda, o cümlәdәn Şuşada musiqi sәnәti, ilk növbәdә xanәndә vә sazәndәlәr ustad-şәyird zәminindә inkişaf edirdisә, artıq XX әsrdәn başlayaraq peşәkar musiqi tәhsili daha geniş sahәlәri әhatә edәrәk, sistemlәşdirilmәyә vә kütlәvilәşmәyә doğru istiqamәt götürmüşdü. O dövrdә Azәrbaycanda bәstәkar Üzeyir Hacıbәyovun böyük әmәyi sayәsindә peşәkar musiqi tәhsilinin bünövrәsi qoyulur. İşğal nәticәsindә bütün sivil dünyanın böyük hәsrәt, bәzәn isә yanğı ilә baxdığı sәnәt mәbәdi olan Şuşa vә Şuşanın mәdәniyyәt ocaqları ermәni vandalları tәrәfindәn dağıdıldı, viran edildi. Lakin Şuşanı xәritәdәn silmәyi, әn azı özlәrinki edә bilmәdilәr. Çünki, Şuşanın qalaları, oradakı müqәddәs ruhlar imkan vermәdi. Müqavimәt göstәrilәr, o zamana qәdәr ki, 8 noyabr 2020-ci il dә Azәrbaycan әsgәri Şuşaya daxil olub, ermәni vәhşilәrini şәhәrdәn qovdu.

Bu gün Şuşa dirçәlir, qurulur, bәrpa edilir. Artıq dağıdılmış dini mәrkәzlәrimiz bәrpa vә tәmirdәn sonra istifadәyә verilib. Azәrbaycan Prezidenti İlham Әliyev, Birinci xanım Mehriban Әliyeva vә qızları Leyla Әliyeva Şuşa şәhәrindәki Saatlı, Aşağı Gövhәrağa, Yuxarı Gövhәrağa mәscidlәrini ziyarәt ediblәr vә dövlәtimizin başçısı mәscidlәrә Mәkkәdәn gәtirilmiş "Qurani-Şәrif"i hәdiyyә edib. İşğaldan azad edilәn әrazilәrdә aparılan tәmir-tikinti, bәrpa işlәrindәn sonra qayıdan insanlar arasında şuşalılar da var. Cari ilin mayın 10-da Azәrbaycan Prezidenti İlham Әliyevin iştirakı ilә ilk yaşayış kompleksinin açılışı olub.Yaşayış kompleksindә ilk olaraq 20 ailә, o cümlәdәn 88 nәfәr yerlәşib. 23 dördmәrtәbәli binadan ibarәt yaşayış kompleksi 8 hektar әrazidә inşa edilib. 450 mәnzildәn, o cümlәdәn 28 әdәd birotaqlı, 195 ikiotaqlı, 190 üçotaqlı, 30 dördotaqlı vә 7 beş otaqlı mәnzildәn ibarәtdir.Müvafiq olaraq 300 vә 500 mәnzildәn ibarәt ikinci vә üçüncü yaşayış kompleksinin tikintisi planlaşdırılır. Azәrbaycanın mәdәniyyәt paytaxtı, qәdim şәhәrimiz Şuşada bu günә qәdәr çoxsaylı yerli vә beynәlxalq miqyaslı konfranslar, seminarlar, festivallar keçirilir. Bütün bunlar bir daha Şuşamızın Qafqazın incisi, Qarabağımızın baş tacı olduğunu tәsdiqlәyir.

Düşmәnә döyüş meydanında vurulan sarsıdıcı zәrbә işğaldan azad edilәn әrazilәrin bәrpası ilә davam etdirilir. Şuşamız vә digәr işğaldan azad edilәn әrazilәrimiz Fateh Sәrkәrdә, Prezident İlham Әliyevin dediyi kimi, cәnnәtә çevrilirlәr. İnsanlarımız doğma yurdyuvalarına qayıtmaqla o bölgәlәrә yeni hәyat, yeni nәfәs verirlәr.

***İLHAM ӘLİYEV***

# Böyük QAYIDIŞ: Kəngərlidə yeni səhərlər açılır!

## Qarabağ və Şərqi Zəngəzurda 43 mindən çox insan yaşayır






***İşğaldan azad edilmiş ərazilərin bərpası, əhalinin öz yurdlarına təhlükəsiz şəkildə qayıtması, habelə Qarabağ və Şərqi Zəngəzurda dayanıqlı məskunlaşmanın və məşğulluğun təmin olunması istiqamətində görülən işlər Böyük Qayıdış prosesini ölkənin sosial-iqtisadi inkişafında qazanılan nailiyyətlərin ayrılmaz tərkib hissəsinə çevirib. İşğaldan azad edilmiş ərazilərin bərpasının, dayanıqlı inkişafının və keçmiş məcburi köçkünlərin doğma yurdlarına könüllü, təhlükəsiz və ləyaqətli şəkildə qayıdışının təmini məqsədi ilə kompleks tədbirlər həyata keçirilir. Bu istiqamət həm də regionda sabitliyin təmin olunmasına mühüm töhfə verir. Böyük Qayıdış prosesi ölkəmizin sosial-iqtisadi inkişaf strategiyasında əsas prioritetlərdən biri kimi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də öz əksini tapıb.***

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq hazırlanmış "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", həmçinin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" uğurla icra olunur. Əlbəttə ki, bu, ölkənin sosial, iqtisadi və institusional inkişafı üçün mühüm zəmin yaradıb. Sözügedən Strategiya sosial-iqtisadi inkişaf üzrə müəyyən edilmiş beş Milli Prioritet əsasında həyata keçirilir. Həmin Strategiyanın ardıcıl və sistemli icrası sayəsində iqtisadiyyatın xarici təsirlərə qarşı dayanıqlığı daha da möhkəmlənib, əhalinin rifah səviyyəsi yüksəlib və gələcək nəsillər üçün irihəcmli maliyyə ehtiyatları formalaşıb. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, "Qarabağın hər bir yerində sahib kimi, bu Vətənin övladları kimi yaşayırıq, qururuq, bərpa edirik". Qarabağ və Şərqi Zəngəzur bu gün böyük tikinti meydançasına çevrilmişdir.

### 40 AİLƏ - 154 NƏFƏR KƏNGƏRLİYƏ - DOĞMA YURDA QAYIDIB

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, Ağdam rayonunun yenidən qurulan Kəngərli kəndinə respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Bu mərhələdə Kəngərli kəndinə 40 ailə - 154 nəfər köçürülüb. Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 43 mindən çox insan yaşayır.

Bəli, Azərbaycan Böyük Qayıdış konsepsiyasını uğurla reallaşdırır. İşğaldan azad edilmiş torpaqlara qayıdırıq və həmin yerlərdə yeni bir həyat başlayır. 30 ilə yaxın işğal altında olan torpaqlarımız azad olunandan sonra Qarabağımız və Şərqi Zəngəzurumuza yeni həyat verilir. Zəfər qazanan Azərbaycan tarixin dönəmində inkişaf yolu keçərək böyük quruculuq işlərini həyata keçirməyə başlayıb. Ərazi bütövlüyünü, suverenliyini təmin etmiş bir dövlətin müstəqillik tarixində ərazi bütövlüyü çərçivəsində baş tutmuş Zəfər Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad edilməsi tariximizə əbədi həkk olundu və əzəli yurd yerlərimizə sahib olduq.

Yurd yerlərinə hər gün neçə-neçə insan köç edir, doğma yurda qovuşurlar. Artıq işğaldan azad olunan ərazilərimizin əzəli sakinləri öz dədə-baba yurdlarına qayıdırlar. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur.

### "UZUN FASİLƏDƏN SONRA DOĞMA DƏDƏ-BABA TORPAĞINDA YAŞAMAQ, ƏLBƏTTƏ Kİ, BÖYÜK XOŞBƏXTLİKDİR"

Cənab Prezident müharibədən sonra azad olunmuş ərazilərə şəxsən səfər edir, həmin torpaqlardan qarşıda duran vəzifələrlə bağlı mesajlarını verir. Hər bir ərazidən qalib ordunun və dövlətin qalib SƏRKƏRDƏSİ kimi səsini ucaldır, mesajlarını verir.

Bu gün işğaldan azad olunan digər ərazilərimiz kimi, Ağdam da abadlıq-quruculuq meydanına çevrilib. 1993-cü ilin iyul ayının 23-də işğal olunan Ağdam 20 noyabr 2020-ci il tarixində azadlığına qovuşdu. İyirmi yeddi ildən sonra işğaldan azad olunan Ağdamda dövlət bayrağımız dalğalandı. İşğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı və 54 tibb müəssisəsi, 79 mədəniyyət ocağı fəaliyyət göstərirdi.

İndi Ağdamın Kəngərli kəndində də yeni həyat başlayıb. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Kəngərliyə həyat qayıdıb, Kəngərli sakinləri artıq qayıdır, böyük xoşbəxtlikdir, tarixi hadisədir. Uzun fasilədən sonra doğma dədə-baba torpağında yaşamaq, əlbəttə ki, böyük xoşbəxtlikdir". Dövlət başçımız onu da bildirib ki, siz uzun illər ağır şəraitdə - ölkəmizin müxtəlif yerlərində yararsız evlərdə, yataqxanalarda, uşaq bağçalarında, müəyyən müddət isə çadır şəhərciklərində yaşamısınız: "Bu gün isə gözəl kəndin timsalında yeniləşən Azərbaycanı görürük, bərpa olunan Qarabağı görürük. Göstəririk ki, bu torpaqların sahibi həmişə biz olmuşuq, bu gün də belədir. Ancaq bu torpağın sahibi bu torpaqda qurub-yaradır".

### KƏNGƏRLİ KƏNDİNDƏ 2626 NƏFƏR (639 AİLƏ) MƏSKUNLAŞACAQ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ağdam rayonuna səfərlərinin nəticəsi olaraq, burada yeni müəssisələrin təməllərinin qoyulur və açılışlar edilir. Artıq qeyd etdiyimiz kimi, Ağdam rayonunun Kəngərli kəndi öz sakinlərini qoynuna aldı. Ağdam şəhərindən 6 kilometr məsafədə yerləşən Kəngərli kəndində 2626 nəfərin (639 ailə) məskunlaşması planlaşdırılıb.



Bu gün isə Azərbaycan vətəndaşı hər bir qarış torpağının sahibidir, hər yerdə yaşayır, yaşayacaq. Sürətli bərpa işləri onu göstərir ki, tezliklə bütün keçmiş köçkünlər öz torpaqlarına qayıdacaqlar. "Biz bundan sonra ancaq və ancaq qalib xalq kimi yaşayacağıq, bu torpaqlarda əbədi yaşayacağıq və xoşbəxt yaşayacağıq", - deyə Prezident bildirib. Hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir.

### AĞDAM RAYONUNDA 35 MİN HEKTARDAN ÇOX ƏRAZİ MİNA VƏ PARTLAMAMIŞ HƏRBİ SURSATLARDAN TƏMİZLƏNİB

Əlbəttə ki, bu gün işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi də əsas məsələlər sırasındadır. Bildiyimiz kimi, Ermənistan Ağdam, Füzuli və Zəngilan rayonlarında basdırdığı tank və piyada əleyhinə minaya dair xəritələrini Azərbaycana təhvil verib. Bu Azərbaycan Prezidentinin həyata keçirdiyi uzaqgörən siyasətinin məntiqi nəticəsi idi. İlk olaraq Ağdamda, daha sonra isə Füzuli və Zəngilanda basdırılmış minaların xəritələrinin Ermənistandan alınması on minlərlə vətəndaşın, o cümlədən, minatəmizləyənlərin həyatının təhlükədən xilası deməkdir. Minaların təmizlənməsi maliyyə itkisi ilə yanaşı, vaxt itkisinə də səbəb olur. Ermənistanın basdırdığı minalar mülki əhalinin təhlükəsizliyi, sağlamlığı və həyatı üçün ciddi təhlükə törədir və ya azad edilmiş ərazilərdə sosial-iqtisadi inkişafa mane olur. Ölkə rəhbərinin azad edilmiş ərazilərin yenidən qurulması, Böyük Qayıdış Proqramının uğurlu icrası, təhlükəsiz və dayanıqlı məskunlaşmanın təmin olunması istiqamətindəki tapşırıqlarına uyğun olaraq aparılan mühüm işlər diqqəti cəlb edir. Qeyd edək ki, işğaldan azad olunan ərazilərdə minatəmizləmə əməliyyatları Böyük Qayıdış Proqramının əsas tərkib hissələrindən biridir və bu fəaliyyət yalnız təhlükəsizlik baxımından deyil, həm də sosial-iqtisadi inkişaf və əhalinin doğma yurdlarına qayıdışı üçün ilkin şərtdir. Minatəmizləmə fəaliyyətinə cəlb olunan qurumlar tərəfindən 2025-ci il ərzində yaşayış infrastrukturu üzrə 8 318 hektar, kənd təsərrüfatı üzrə 9 176 hektar, ekoloji qiymətləndirmə üzrə 1 951 hektar, nəqliyyat infrastrukturu üzrə 708 hektar, meliorasiya və su təsərrüfatı üzrə 628 hektar və digər prioritet layihələr daxil olmaqla, cari il ərzində 27 204 hektar ərazi mina və partlayıcı qalıqlarından təmizlənib.

44 günlük Vətən müharibəsindən sonra Ağdam rayonunda 35 min hektardan çox ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib.

Ağdamın Sarıcalı kəndində birinci mərhələdə kəndin ərazisi mina və partlamamış hərbi sursatlardan təmizlənib. İkinci mərhələdə Sarıcalı kəndi ətrafındakı kənd təsərrüfatı təyinatlı torpaqlar təmizlənəcək. Sarıcalı kəndi keçmiş təmas xəttinin olduğu ərazilərdəndir. Ərazi minalarla həddindən artıq çirkləndirilib.

Minatəmizləmə fəaliyyəti işğaldan azad olunmuş bütün ərazilərdə, o cümlədən Qazax rayonunda da icra olunur. Bu günədək 206 min hektardan çox ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib, 199 minə yaxın mina və partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib.

Azərbaycan minadan əziyyət çəkən bir dövlətdir. Azərbaycan Ermənistan tərəfindən ərazilərimizin 30 ilə yaxın davam edən hərbi işğalı zamanı, habelə hazırkı postmünaqişə dövründə mina təhdidindən əziyyət çəkən, çoxsaylı mina qurbanları verib. Ermənistan tərəfindən hətta postmünaqişə dövründə belə davam etdirilən mina təhdidi bölgədə aparılan bərpa və yenidənqurma işlərini, keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıdışı prosesini ləngitməklə yanaşı, vətəndaşlarımızın həyat və sağlamlıqları üçün ciddi təhlükə mənbəyi olaraq qalmaqdadır. Ermənistanın uzun illər ərzində işğal altında saxladığı əraziləri mina ilə çirkləndirməsi Böyük Qayıdış prosesinin qarşısında ciddi maneə olaraq qalmaqdadır.

Azərbaycan dövləti yalnız keçmiş məcburi köçkünlərin problemlərinin həlli sahəsində deyil, eyni zamanda, postmünaqişə dövrünün reabilitasiyası və keçmiş məcburi köçkünlərin doğma yurdlarına reinteqrasiyası baxımından da dünya miqyasında nümunəvi model təqdim etməkdədir.

***Zümrüd BAYRAMOVA***

# Serial çəkmək, yoxsa serialdan pul çəkmək?

## Aktyor, ssenarist Tərlan Nur Yaşarın SİA-ya müsahibəsini təqdim edirik:






***- Azərbaycanda serial çəkilişləri hansı səviyyədədir? Çəkilişləri həyata keçirmək üçün münasib şərait var? Dünya ilə müqayisədə inkişafdayıq?***

- Dünya səviyyəsində tanınmaq və rəqabət aparmaq istəyiriksə, ilk növbədə dünya bazarına çıxışımız olmalıdır. Amma gəlin açıq danışaq, bu gün biz dünya bazarına serial satmırıq. Çünki seriallarımız dünya bazarının tələblərinə uyğun çəkilmir. Hazırda çəkilən seriallar sırf yerli bazar üçün nəzərdə tutulur. Bu da onların keyfiyyətini, mövzu dərinliyini və texniki səviyyəsini məhdudlaşdırır. Bu, təkcə Azərbaycanla bağlı məsələ deyil, bu, ümumilikdə insan münasibətləri və sistem yanaşması ilə bağlı problemdir. Misal üçün, bazarda olan seriallar arasında keyfiyyət fərqi çox böyükdür. Elə serial var ki, bir bölümü üçün xeyli böyük büdcə ayrılır və texniki baxımdan da yüksək səviyyədədir (məsələn, "Şirin" serialı kimi). Amma elə serial da var ki, cəmi 1500-2000 manata çəkilir. Bu zaman aktyorlar da, texniki heyət də gecə-gündüz istismar olunur. Gündə 16-18 saat çəkiliş, aşağı əməkhaqqı, fiziki və psixoloji gərginlik. Bu, artıq serial çəkmək deyil, əziyyət çəkməkdir. Ən acınacaqlı tərəfi isə odur ki, bəzən bu sahədə məqsəd sənət yaratmaq deyil, sadəcə pul qazanmaq olur. "Serial çəkirik" adı altında resurslar israf edilir, amma nə keyfiyyət olur, nə də inkişaf. Halbuki, əgər məqsəd həqiqətən də dünya səviyyəsinə çıxmaqdırsa, onda bu sahəyə yanaşma da dəyişməlidir: Keyfiyyətli ssenari və rejissor işi olmalıdır, peşəkar aktyorlar və texniki komanda şəraitə uyğun şəkildə işləməlidir, dövlət və özəl sektor tərəfindən dəstək olmalıdır, ən əsası, dünya bazarına çıxış üçün real hədəf qoyulmalıdır. Yalnız bu halda Azərbaycan serialları dünya auditoriyası tərəfindən izlənə və dəyərləndirilə bilər. İnsanın həyatında çox şey dəyişə bilər, ev alar, maşın alar, biznes qurar. Amma bu dəyişiklikləri yaşayan bəzi insanlar, xüsusən serial sahəsində çalışanlar, sonda elə camaatın qınağına tuş gəlirlər. Niyə? Çünki çox vaxt ətrafdakıları, xüsusilə əməkdaşları istismar edirlər. Halbuki günah özlərindədir. Məsələn, mənə ucuz qiymətə iş təklif edən olanda, söhbəti oradaca bağlayıram. Artıq özümüzü ayaq altına atacaq səviyyədə deyiləm. Söhbət təkcə puldan getmir. Mən bir layihəyə "hə" deməmişdən əvvəl 10-15 sual verirəm: Rejissor kimdir? Ssenarini kim yazıb? Hekayə nədən bəhs edir? Harada və necə çəkiləcək? Əgər bu suallara cavab verə bilmirlərsə və ya ümumiyyətlə işi ciddi qəbul etmirlərsə, mən o işə getmirəm. Çünki belə adam təkcə sənin haqqını yox, ümumilikdə bu peşənin dəyərini aşağı salır.

***- Serial çəkilişlərinin daha populyar olması üçün xarici aktyorlara üstünlük veririk. Hətta türk aktyorlarının belə dəfələrlə gəlişinin şahidi olmuşuq. Bu, öz aktyorlarımıza inamsızlıqdan irəli gəlir?***

- Mən bu sahədə illərlə çalışmış biri kimi deyə bilərəm ki, yüzdə doxsan hallarda çox acı bir mənzərənin şahidi olmuşam. Bu, rəsmi olaraq heç kim tərəfindən etiraf edilməyəcək, amma reallıq budur: əgər layihəyə xarici aktyor dəvət olunubsa, deməli ortada ciddi büdcə var. Lakin bu büdcədən yerli aktyor faydalana bilmir. Misal üçün, layihənin yaymçısı və ya prodüseri deyə bilər ki, "biz filan xarici aktyora 100.000 manat veririk". Amma həmin yerli aktyora deyirlər ki, "sən yerli aktyorsan, sənə 50.000 yetər". Bu nə qədər ədalətlidir? Daha pis hal isə odur ki, xarici aktyora ödənilən məbləğ bəzən kağız üzərində şişirdilir. Yəni faktiki məbləğdən daha çox göstərilir, sırf bəzi qurumları aldatmaq üçün. Xarici aktyor istədiyi məbləği alır, amma yerli aktyor həmişə güzəştə getməyə məcbur edilir. Bəs niyə yerli aktyor "yox" demir? Burada günahın bir hissəsi də özümüzdədir. Yerli aktyorun çoxu bu cür münasibətlə razılaşır, çünki seçim imkanları azdır, çünki sistemdə yerini itirmək istəmir. Amma mən belə hallarda adətən təşəkkür edib işdən imtina edirəm. Mənim üçün məsələ təkcə pul deyil. Layihəyə razılıq verməzdən əvvəl mən 10-15 sual verirəm: Rejissor kimdir? Ssenarini kim yazıb? Hekayə nədən bəhs edir? Çəkiliş harada və necə olacaq? Əgər bu suallara ciddi cavab verilmirsə və ümumi yanaşma qeyri-peşəkardırsa, mən o layihədə iştirak etmirəm. Çünki bu artıq peşəkar prinsip məsələsidir. Yerli aktyorlar heç kimdən geri qalmır. Burada bir məsələni xüsusi vurğulamaq istəyirəm: bizim aktyorlarımız xarici həmkarlarından heç də zəif deyillər. Onlar hər biri öz məktəbini keçmiş, illərlə təcrübə qazanmış, rolları canla-başla oynayan sənətkarlardır. Əgər onlara da dəyər verilsə, ədalətli müqavilələr təqdim olunsa, mən əminəm ki, Azərbaycan aktyorları istənilən beynəlxalq layihədə uğurla çıxış edə bilər. Heç bir xarici aktyor, istər türk, istər iranlı, istərsə də uzaq ölkələrdən bizim aktyorlarımızdan heç nə ilə üstün deyil, nə istedad baxımından, nə də səhnə təcrübəsi baxımından.

*Ardı Səh. 13*



MƏTANƏT

## Qaçqınsız dünya quraq!

***Dünyada qaçqınlıqdan, köçkünlükdən ağır dərd ola bilməz. Bunu soydaşlarımız bu həyatı yaşadığı üçün deyə bilirəm. Çünki uzun illər onların nələr çəkdiyini gözlərimizlə görmüş, acısını hər biri kimi yaşamışıq, ürəyimiz yanıb, parça-parça olub.***

Artıq dövlətimiz qaçqınlığa son qoyub. Ölkəmizin minlərlə qaçqınının hər biri öz ata-baba yurdunun azadlığını görüb, əksəriyyəti yurd-yuvasına qayıdıb. Böyük Qayıdış Proqramı davam edir. Yaxın gələcəklə onların hamısı doğma evlərinə qayıdacaq. Çünki daşı daş üstündə qalmayan Qarabağ və Şərqi Zəngəzurun əraziləri dövlətimiz tərəfindən yenidən qurulur.

1990-cı illərdən başlayaraq ermənilərin Azərbaycan torpaqlarında olan tamah dişi minlərlə soydaşımızın xoş gününü, səadətini didib-parçaladı. Onları doğma ata-baba yurdundan didərgin saldı. 126 yaşayış məntəqəsi zorla boşaldıldı. XX əsrin ən faciəli hadisələrindən biri törədildi - 6000 azərbaycanlının yaşadığı Xocalı şəhəri bir gecədə darmadağın edildi. Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olundu, Qarabağ, ətraf rayonlardan, həmçinin Ermənistanla həmsərhəd olan yaşayış məntəqələrindən 700 min nəfərədək azərbaycanlı öz daimi yaşayış yerindən məhrum olaraq respublikanın 62 şəhər və rayonunda məskunlaşdı. Hərbi təcavüz nəticəsində 20 min azərbaycanlı həlak oldu, 100 min nəfər yaralandı, 50 min insan müxtəlif dərəcəli xəsarət aldı. 1 milyon 200 mindən çox qaçqın, məcburi köçkünü oldu Vətənimizin...

2020-ci ilin 44 günlük İkinci Vətən müharibəsinin Zəfərlə bitməsi yurdundan məcburən qovulan və 30 ildən artıq köçkün, qaçqın həyatı yaşayan soydaşlarımızın üzünü güldürdü. Qəlbləri fərəhlə döyündü, qürur hissi yaşadılar. Çünki artıq bu statusu daşımayacaqdılar. Onlar müzəffər Ali Baş Komandanımızın və əzəmətli milli ordumuzun əyilməz zabit və əsgərlərinin hünər meydanında göstərdiyi qəhrəmanlıqla öz ata-baba torpaqlarının yenidən sahibi olmuşdular.

2023-cü ilin sentyabr ayının 20-də birgünlük lokal xarakterli antiterror əməliyyatı ilə Xankəndi, Xocalı, Xocavənd kimi tarixi torpaqlarımız öz sahiblərinə qovuşdu. Mənfur erməninin Qarabağdan və Şərqi Zəngəzurdan birdəfəlik ayağı kəsildi.

30 ildən artıq qaçqınlıq həyatı yaşayan soydaşlarımızı yada saldıqca, onların 30 il yurdsuz, evsiz-eşiksiz yaşadıqlarını düşündükcə, qəlibimiz yenidən düşmənə qarşı sonsuz nifrətlə dolur.

Qələbə qazansaq da, Zəfər bizim olsa da, lakin qaçqın-köçkünlərimizin 30 illik həyatını unutmaq olarmı? Bu torpaqlar uğrunda canından keçən şəhidlərimiz, sağlamlığından keçən qazilərimiz var. Onların hər birinin Qarabağımızın anası Azərbaycana qovuşmasında misilsiz qəhrəmanlığı olub.

Qaçqınlıq həyatı yaşayan soydaşlarımız tarixin bütün dövrlərində anılacaq. Çünki bizim qaçqınlıqda yaşlaşan gənclərimiz oldu. Qaçqınlıqda yurd həsrəti ilə dünyasını dəyişən ağbirçək, ağsaqqallarımız oldu. Evinin, həyətinin xəyalını qəlbinə gömən insanlar, uşaqlığı Qarabağda və Şərqi Zəngəzurda qalan, gəncliyi qaçqınlıqda keçən soydaşlarımız oldu.

Torpaqlarımız bu gün azaddır. Hər azad torpağımızda üçrəngli bayrağımız dalğalanır. Minlərlə insan artıq evindədir, qayıdıb, yaşayır. Digərləri isə qayıdacaq.

Lakin onların qaçqın, köçkün kimi 30 il ərzində nələr yaşadığı unudulmayacaq. Və qaçqınlıq, köçkünlüyü yaşayan xalq kimi bütün dünyada buna məcbur qalan insanlara böyük yanğı ilə yanaşırıq. Çünki onlar da bizim taleyimizin eynisini yaşayırlar.

Qoy bütün dünya ən yaxın gələcəkdə qaçqınsız bir dünya qurmaq qənaətinə gəlsin. Son qoyulsun qaçqınlığa. Bir parça torpağı heç kim sahibinə çox görməsin. Axı insanlar müqəddəs torpaqlarına yaxından bağlıdır. Onlar torpaqsız-yurdsuz özlərini heç yerdə xoşbəxt hiss etmirlər. Görəsən dünya bunu anlayırmı?

Yeri gəlmişkən, 2000-ci ilin 4 dekabrında BMT Baş Assambleyasının qərarına əsasən 20 iyun-Ümumdünya Qaçqınlar Günü kimi qeyd olunur. Nə yaxşı ki, bu qərar verilib. 4 dekabr və 20 iyunda dünya qaçqınları yada salınır. Düşünürəm ki, tək yada salmaqla ötməz, qaçqınsız bir dünya qurmaq da gələcəkdə bütün dünyanın gəldiyi ümumi qərar olmalıdır.

# Serial çəkmək, yoxsa serialdan pul çəkmək?

## Aktyor, ssenarist Tərlan Nur Yaşarın SİA-ya müsahibəsini təqdim edirik:

Əvvəli Səh. 12

Sadəcə problem ondadır ki, bəziləri xarici aktyor gətirməklə sanki layihəyə "çəkicilik" qatmaq, onu "elit" göstərmək istəyirlər. Bu isə çox vaxt şəxsi maraqlara xidmət edir. Əgər kimsə layihəsinə xarici aktyor cəlb edirsə, bu, nə sənətə, nə də ümumi keyfiyyətə ciddi bir töhfə vermir. Çünki əsl dəyər və peşəkarlıq burada - bizim aktyorlarımızdadır. Əksinə, bu cür yanaşmalar yerli sənət adamlarını gözardı etməyə, onların dəyərini aşağı salmağa xidmət edir. Halbuki, yerli aktyorlara güvənilsə, onların imkanları və bacarığı düzgün qiymətləndirilsə, biz heç kimin arxasınca baxmaq məcburiyyətində qalmarıq.

***- Keyfiyyətli serial ərsəyə gətirmək üçün başlıca olaraq nələr olmalıdır?***

- Mənim fikrimcə, serialın uğuru ilk növbədə ssenaridən başlayır. Ssenari bu işin baş beynidir, əsasıdır. Üstəlik, serial çəkilişi uzunmüddətli və çoxmərhələli bir prosesdir. Film bir dəfəlik layihədir: üzərində işləyirsən, tamamlayırsan, çəkirsən və bitir. Amma serial davamlılıq tələb edən, mərhələlərlə inkişaf edən bir struktura malikdir. Yəni, biz ssenaristlər olaraq əvvəlcədən xəttləri qururuq:

- bu obraz belə inkişaf edəcək,
- bu xətt digər xətlə burada kəsişəcək,
- 3-4 dramaturji xətt paralel gedəcək və müəyyən nöqtələrdə birləşəcək.

Ancaq ən primitiv və eyni zamanda ən dağıdıcı problemlərdən biri budur: aktyorlardan biri qəfil gedir. Müqaviləsi olsa da, hansısa başqa layihədən təklif alır və deyir ki, "mən gedirəm". Bu, domino effekti kimi bütün strukturu silkələyir. Qəfil aktyor dəyişikliyi serialın ritmini pozur. Bu cür hallarda dərhal senaristlər yığışır və ssenarini yenidən qurmağa məcbur olurlar. Nəticədə: həmin obraz ya qəfil güllələnir, ya maşın qəzasında ölür, ya da birdən-birə "xaricə köçür". Yəni, hadisənin məntiqi gedişi yox olur, hər şey tələsik və süni şəkildə dəyişdirilir. Bu isə serialın keyfiyyətinə ciddi zərbə vurur. Tamaşaçı artıq hekayəyə inanmır, hadisələr süni görünür. Bu, mənim sadaladığım ən sadə problemdir. Arxasında daha böyük, daha sistemli məsələlər dayanır: təşkilati zəiflik, müqavilə intizamının olmaması, aktyor-ssenarist-rejissor münasibətlərində qeyri-peşəkar yanaşma və s.

***- Seriallarımız tamaşaçının zövqünü oxşaya bilirmi? Əslində tamaşaçı nə görmək istəyir?***

- Tamaşaçını cəlb etmək üçün bəzən sadəcə vizual keyfiyyət kifayət etmir. Ən başlıca məsələ maraqlı və əsaslı bir hekayənin olmasıdır. Elə bir kriteriya yoxdur ki, tamaşaçı sırf görüntüyə görə nəyəsə baxsın. Tamaşaçıya maraqlı bir hekayə təqdim olunduqda, o, keyfiyyətindən asılı olmayaraq həmin işə baxacaq və onu dəyərləndirəcək. Əgər həm hekayə maraqlıdır, həm də texniki baxımdan keyfiyyətli şəkildə təqdim olunubsa, tamaşaçı bunu dərhal hiss edir və yüksək qiymətləndirir. O zaman deyirlər ki, "bu, həqiqətən mükəmməl işdir". Amma bəzən elə olur ki, hekayə o qədər maraqlı olur ki, texniki qüsurlar belə unudulur. Tamaşaçı başa düşür ki, bu işin arxasında fikir, səmimiyyət və real bir yanaşma var. Məsələn, bizim ilk çəkdiyimiz "Toy" filmi belə idi. O vaxtlar biz hələ peşəkar deyildik, filmin necə çəkildiyini tam anlamırdıq. Çəkilişə çox peşəkar bir operator dəvət etmişdik, o vaxt "Qaynana" filmində işləmişdi. Amma gözləntilərimizin əksinə olaraq, bu operator bizi çox məyus etdi. Filmin gedişində bir çox texniki çətinliklər yaşandı və nəticə bizi qane etmədi. Yalnız sonradan hal-hazırda böyük televiziyalardan birinin rəhbəri olan bir operator köməyə gəldi və işi tamamladı. Və biz gördük ki, həqiqətən də işi bilən insanın dəyişikliyi nəticəyə necə təsir edir. Bu təcrübə bizə öyrətdi ki, uğurlu iş üçün bir neçə əsas faktor lazımdır: güclü hekayə, düzgün komanda və peşəkar texniki heyət. Amma hekayə hər zaman birinci yerdə gəlir. Tamaşaçıya təsir edən, onu düşündürən və yadda qalan şey məhz hekayədir. Əgər istəyirsənsə, bu mətni video danışıq üçün nitq formatında və ya sosial şəbəkə paylaşımı üçün qısaldılmış versiyada da hazırlaya bilərəm. İstəyini bildir, uyğunlaşdıraq. Düzünü desək, "Toy" filmi texniki baxımdan keyfiyyətli deyildi, hətta deyərdim ki, həddindən artıq keyfiyyətsiz idi. Amma baxmayaraq ki, görüntü və texniki tərəfləri zəif idi, o film insanlara sevinc, nostalji və gülüş bəxş etdi. Tamaşaçılarla bir bağ qurdu. Həqiqətən də, zəif çəkilmiş, amma güclü hekayəyə və ruhuna malik bir filmin nələr edə biləcəyini biz orada gördük. Bu gün belə, Rusiyada və digər ölkələrdə yaşayan azərbaycanlılarımız həmin filmi sevə-sevə izləyirlər. Onun diskini evlərində saxlayır, qəribliklərini yüngülləşdirmək üçün ona baxırlar. Bu təkcə bir film deyil, yaddaşdır, xatirədir, məhəllə ab-havasıdır, gülüş dolu bir Azərbaycan nostaljisidir. Bu baxımdan "Toy" filmi, "Məhəllə", "İltifat" kimi filmlərlə eyni xəttdə dayanır. Onlar texniki baxımdan bəlkə də zəifdir, amma içindəki həyat, xalq koloritimiz, hekayə və səmimiyyət onları yaşadır. Hələ də baxanda adam gülür, hələ də doğmalıq hiss olunur. Təxminən bir il, il yarım əvvəl Rusiyadakı dostlarımızla söhbət zamanı təklif gəldi: "Gəlin bu filmi eyni senari ilə, dəyişmədən, sadəcə keyfiyyətli şəkildə yenidən çəkək." Fikir çox məntiqli idi. Çünki həm maraqlı hekayə, həm də gözəl heyət var idi. Əgər biz bu işi peşəkar şəkildə yenidən təqdim etsək, oradan gələn gəlirlə artıq təcrübəyə əsaslanaraq "Toy 2" filminin çəkilişlərinə başlaya bilərik. "Toy" filmi Azərbaycanın ailə və toy mədəniyyətini bir filmə cəmləyən gözəl nümunə idi. Necə ki, "Məhəllə" filmi bir qəsəbənin müxtəlif xarakterli sakinlərini bir məkanda birləşdirirdi, bizim film də bir ailənin, bir toyun içində müxtəlif bölgələrdən, fərqli xarakterlərdən olan insanları bir araya gətirirdi. Bu da həm komik, həm emosional, həm də xalqımıza xas koloritlə zəngin bir iş ortaya çıxarmışdı.






***- Seriallardan şikayətlər çoxdur. Deyirlər ki, bayağıyıq. Razılaşırsınız?***

- Bəzən deyirlər ki, niyə bizim seriallarımız, filmlərimiz bayağı olur? Amma məsələ təkcə çəkənlərdə, aktyorlarda, rejissorlarda deyil. Tamaşaçı da bu işin bir hissəsidir. Əgər insanlar keyfiyyətli serialı televiziyada izləmirlərsə, onun reytinqi olmur. Reytinq olmayan yerdə isə kanal rəhbərliyi üçün o iş maraqsız görünür və nəticədə həmin serial yayımdan çıxarılır. Sonra da ictimaiyyət tərəfindən belə fikirlər eşidirik: "Yox, bunlar ancaq bayağı serial çəkirlər." Amma niyə çəkilməsin bayağı serial? Axı tamaşaçı özü baxmır keyfiyyətliyə. Onu dəstəkləmir. YouTube-da baxmaqla bu proses dəstəklənmir, çünki reklam bazarı, maliyyə dövriyyəsi və yayım siyasəti televiziyada formalaşır. Bu bir ekosistemdir. Digər tərəfdən, aktyorların vəziyyətini də başa düşmək lazımdır. Bəzi aktyorlar iş təkliflərini məcburiyyət qarşısında qəbul edirlər. Həminın maliyyə durumu yaxşı deyil. Bəli, sənətdə ustalar var, yaxşısı da, pisi də. Amma pis usta da axı ustadır. Onun işi budur. O, gedib başqa yerdə, alimlikdə, mühəndislikdə pul qazanmayacaq. O, sənəti ilə dolanmalıdır. Əgər yalnız bayağı işlər təklif olunursa, məcbur orada işləyəcək. Əslində məsələ çox sadədir: təklif tələbdən doğur. Əgər tamaşaçı televiziyada keyfiyyətli seriala baxsa, reytinq yuxarı qalxar, kanal maraq göstərər, yaxşı rejissorlar və aktyorlar üçün yeni fürsətlər yaranar. Bu zaman sənətkar da daha keyfiyyətli işlər görər, çünki həm maddi, həm mənəvi dəstək olar. İstəyirik ki, sənət böyüsün, inkişaf etsin? O zaman onu dəstəkləməliyik - tənqid etməklə yox, baxaraq, paylaşaraq, seçərək, izləyərək. Bəzən insanlar sənət aləminin parlaq tərəflərini görüb düşünürlər ki, aktyorlar, rejissorlar həmişə işlə təmin olunur, dolanışıqları rahatdır. Amma bu sahədə hər kəsin başına gələn çətinliklər var. Sırf sənətkar olmaqla həyatını qazanmaq heç də asan deyil. Bu gün bazarda meyvə sata bilməyən bir insan gedib tikintidə işləyə bilər. Amma bir aktyorun sənəti budur, gedib hər hansısa başqa bir peşəyə yönəlmək ona həm psixoloji, həm də fiziki cəhətdən çox ağır gəlir. Məsələn, 2005-ci ili xatırlayıram. O zaman serial anlayışı, serial bazarı demək olar ki, yox idi. Tək-tük layihələr var idi və onlar da bağlanırdı. Elə bizim iştirak etdiyimiz layihə də bağlandı və hamımız bir anda işsiz qaldıq. Mən o zaman bir restoran işlədirdim. Hətta çox tanınmış bir aktyorumuz vardı - ad çəkməyəcəm, amma o qədər tanınırdı ki, o dövrün sevilən simalarından biri idi, məcbur olub tikintidə, qara işdə işləyirdi. Gecə onunla çıxıb oturardıq, söhbət edərdik.

O söhbətlərdə mən ona deyirdim ki, bir gün gələcək, seriallar bu ölkədə öz yerini tutacaq, efirdə ciddi yer alacaq. Həmin o tanınmış aktyor o dövrdə bunu anlaya bilmirdi. Çünki həm yaş fərqi var idi, həm də o, başqa dövrün adamı idi. Ona seriallar yad idi, necə ki, bu gün mənə sosial şəbəkələr yad gəlir. Amma zaman göstərdi ki, mən haqlı idim. İndi artıq seriallar televiziya proqramlarının ayrılmaz hissəsidir. Hətta teatrlar belə öz aktyorlarının qrafiklərini seriallara uyğun şəkildə tənzimləməyə başlayıblar ki, aktyor həm teatr səhnəsində olsun, həm də serial çəkilişində iştirak etsin. Bütün bunlar onu göstərir ki, sənətkarın dözümlü olması, sənətə inamını itirməməsi çox önəmlidir. Amma cəmiyyətin, tamaşaçının dəstəyi də bu yolda vacibdir. Əgər sənətə dəyər verilirsə, o zaman sənətkar da daha güclü olur. Bəzən deyirlər ki, "bu mümkün deyil", "bizdə keyfiyyətli serial olmaz", "bizim bazarda inkişaf imkanı yoxdur". Amma oldu. 2011-ci ildə sanki küləyimiz arxamızdan əsməyə başladı. O dövrdə serial sahəsində çox böyük işlər görüldü. Təxminən 4-5 il ərzində Azərbaycanda həqiqi bir intibah dövrü yaşandı. Yaxşı layihələr, keyfiyyətli hekayələr, peşəkar aktyor oyunları, hamısı vardı. Amma sonra nə oldu? Təəssüf ki, bazara serialdan "pul çəkmək" üçün gələnlər ortaya çıxdı. Bəzi insanlar sənəti yox, yalnız qazancı düşündü. Başladılar həm aktyorları, həm də investisiya qoyanları aldatmağa. Elə-belə deyil, hər tərəfdən pul qoparmaq, hər şeyi ucuz başa vurmaq istədilər. Məni çağırırlar, danışırıq, qiymət razılaşmasına gəlməyəndə başlayırlar aşağı getməyə: bir az daha zəif, bir az daha zəif insanlara yönəlirlər. Nəhayət, heç öz ciblərindən də yox, sadəcə "vermək istədikləri pula" uyğun bir aktyor tapırlar. Halbuki real bazar qiyməti, real əmək haqqı tam başqadır. Belə olanda, çəkilən serial tamaşaçının qarşısına bayağı şəkildə çıxır. Amma tamaşaçı da bu bayağılığı seyr edir. Nəticədə, həmin o zəif məhsullar tirajlanır, dəstəklənir. Sənayenin ümumi keyfiyyəti aşağı düşür. Burada bir günahkar yoxdur, bu sistemin içində hər kəsin məsuliyyəti var: prodüserlər, aktyorlar, texniki heyət və eyni zamanda tamaşaçı. Tamaşaçı tələb etməsə, bayağılıq ayaqda qala bilməz. Amma çox zaman elə bayağı olan serial daha çox izlənilir, daha çox reytinq gətirir. Əslində, hər şey mümkün idi, oldu da. Biz o intibahı yaşadıq. Sadəcə davam etdirə bilmədik. Əgər dürüstlük, sənətə hörmət və peşəkarlıq əsas prinsip olaraq qalsaydı, indi bambaşqa bir televiziya və kino mühiti ola bilərdi.

**Söylü Ağazadə**

# Solovyov yenə də sərsəmlədi

## O, erməni lobbisinin sifarişi ilə Rusiyanın dövlət televiziya kanalı "Rossiya 1"də Azərbaycana qarşı anormal fikirlər səsləndirdi



Azərbaycan iqtisadi, siyasi, hərbi və digər sahələrdə yeni-yeni nailiyyətlər qazandıqca bəzi xarici ölkələrin qaranlıq dairələrin ölkəmizə qarşı qərəzli münasibətləri bir qədər də dərinləşir. Xüsusilə də Azərbaycan torpaqlarını erməni işğalından azad etməsindən sonra mütəşəkkil xarici məkrli dairələrin anti-Azərbaycan kampaniyası daha da genişlənib. Qonşuluğumuzda dövlət quruluşu formalaşdırıb, hədəflərini yaxın-uzaq dövlətlərin daxili işlərinə burnunu soxan Rusiyadakı şəbəkə ölkəmizə qarşı ikili siyasət həyata keçirir. Hadisələrin inkişafı onu təsdiq edir ki, Rusiyanın məkrli dairələrinin Azərbaycanla bağlı tarixən mövcud olan ikili siyasəti bu gün də dəyişməz olaraq qalır. Ermənilərin torpaqlarımızı işğal etdiyi dövrdə olduğu kimi tarixi Zəfərin qazanılmasından sonra ölkəmizə qarşı istifadə olunan ikili standartlar siyasəti daha açıq, daha aqressiv müstəviyə keçib. Məqsəd isə dəyişməyib, geosiyasi maraqlar naminə hələ də selektiv yanaşmaya, ayrı-seçkiliyə üstünlük verilir. Rusiya hakimiyyətinin ayrı-ayrı erməni təəssübkeşləri Azərbaycanı hədəfə almaqla öz dayaz düşüncələri ilə ölkəmizə siyasi təzyiq edə biləcəklərini düşünürlər. Lakin Azərbaycanda bir məşhur el məsəli var: "İt hürər karvan keçər". Azərbaycan öz hərbi, siyasi qüdrəti ilə elə Rusiyanın himayədarlığı ilə erməni işğalına məruz qalan torpaqlarını 44 günlük Vətən Müharibəsi ilə azad edib, ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Rusiya prezidenti Putinin köməkçisi Vladimir Medinskinin Qarabağı mübahisəli bölgə adlandırması, Rusiyalı teleaparıcı Vladimir Solovyovun, erməni əsilli rusiyalı jurnalist Marqarita Simonyanın və digərlərinin Azərbaycanın ərazi bütövlüyü ilə bağlı sərsəm fikirlər səsləndirmələri küçə itinin göydəki ulduza hürməsinə bənzəyir.

### Vladimir Solovyovun daim əli erməni lobbisinin cibində olub

Hər kəsə bəlli olan fakt ondan ibarətdir ki, Rusiyalı teleaparıcı Vladimir Solovyov ölkəsində çirkli pulların əsas iştirakçıları olan erməni cinayətkar şəbəkəsi ilə geniş əlaqələri mövcuddur. Zaman-zaman bu cür separat əlaqələrə dair məlumatlar yerli və xarici media orqanlarına sızdırılıb. Qeyd olunur ki, V. Solovyov Samvel Karapetyan, Sergey Ambartsumyan, Ruben Tatulyan və digər erməni milyarderlərin yaratdığı şəbəkənin fəal üzvü və iştirakçısıdır. Dəfələrlə şəbəkənin sifarişi əsasında V. Solovyov TV verlişində Azərbaycana qarşı qarayaxma kampaniyası aparıb.

2022-ci ildə erməni tulası rolunda çıxış edən V. Solovyov özünü qondarma separatçı rejimin xarici işlər naziri, hazırda Bakı Hərbi Məhkəməsində mühakimə olunan David Babayanı "Solovyov Live" proqramına dəvət edərək onunla dedi-qodu xarakterli müzakirələr qurmağa çalışmışdır. Lakin sonradan başından böyük qələtlər etdiyini anlayan erməni qazanının dibini yalayan ünsür Azərbaycandan üzr istəməyə məcbur olmuşdur. Üzrxahlıq çıxışında Solovyov bildirmişdir ki, başqa ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət Rusiyanın xarici siyasətinin prioritetlərindən biridir: "Mən şəxsən bu prioritetlə tam razıyam. Dünən səhər proqramımda baş verənlər Bakı tərəfindən qəbuledilməz kimi qiymətləndirilib. Buna görə şəxsən Azərbaycandan üzr istəyirəm. Bu, mənim şəxsi siyasi səhvimin nəticəsi idi. Çətin vaxtlar yaşayırıq, səhvlər olur".

44 günlük Vətən Müharibəsi dövründə Solovyov adət etdiyi tərzini davam etdirmişdir. Hətta erməniləri terrora həvəsləndirmək üçün pafoslu fikirlər də səsləndirməkdən çəkinməmişdir. Bir epizodda isə özünü rüsvay edərək, tüpürgəc qabına çevirmişdir. Belə ki, verilişində döyüşə könüllü getmək istəyən izdihamı göstərək "baxın, bunlar ermənilərdir, döyüşə getmək üçün sıraya... ", fikrini tamamlamadan susmuşdur. Diqqətlə kor gözlərini qıyıb baxdıq da, izdihamda Azərbaycanın üçrəngli bayrağını görüb "bu ki azərbaycanlılardır" deyərək əməkdaşlarına acıqlı səslə "sizin başınız xarab olub", - deyə bildirmişdir. Bununla da həqiqətən də erməni lobbisinin fəal üzvü olduğunu nümayiş etdirdi.

Torpaqlarımız erməni işğalından azad edildikdən sonra da V. Solovyov ətəyində olan erməni daşlarını yerə atmamış və ara-sıra ölkəmizə qarşı hədyanlar səsləndirmişdir. Bu dəfə erməni dığasından düşüncə və əxlaq baxımından heç də fərqlənməyən Solovyov ağalarından biri olan Samvel Karapetyanın Ermənistanda həbs olunmasından sonra Azərbaycanın ərazi bütövlüyü ilə bağlı sərsəm xarakterli ifadələr qeyd etmişdir. Azərbaycanın tarixi şəhəri olan İrəvanda saxlanılan rusiyalı iş adamı Samvel Karapetyanın müdafiəsi üçün çıxış edən V.Solovyov Ermənistanın Baş naziri Nikol Paşinyanın ünvanına təhqirlərlə dolu emosional nitq söyləyib və nitqində bir neçə dəfə mövcud olmamış qondarma "Artsax"ın adını çəkib, ermənilərə Ermənistanın da taleyinin "Artsax" kimi olacağını deyib. Təbii ki, onun bu yekəbaşlığı Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlikdir. Buna görə haqlı olaraq qınalır, ittiham edilir.

"Televiziya aparıcısı Vladimir Solovyov Rusiyanın dövlət televiziya kanalı "Rossiya 1"də yayımlanan müəllif proqramında özünəməxsus qərəz və isterik davranışla Azərbaycana qarşı növbəti dəfə hörmətsizlik nümayiş etdirib". Bu barədə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin açıqlamasında deyilir. Bildirilib ki, Ermənistanda hüquq-mühafizə orqanları tərəfindən saxlanılan yaxın dostu, erməni əsilli rusiyalı iş adamı Samvel Karapetyanın müdafiəsinə qalxan aparıcı bir neçə dəfə "Artsax" ifadəsini işlədib, Ermənistan hakimiyyətini "Artsaxı hədiyyə etməkdə" günahlandırıb, canlı yayımda birbaşa erməni xalqına müraciət edərək onu da gələcəkdə "Artsaxın taleyi gözlədiyini" deyib."Real tarixi faktları təhrif edən, yaxın keçmişdə baş vermiş proseslərə qərəzlə yanaşan Vladimir Solovyov hər zaman Azərbaycana kin və nifrət bəsləmiş, bu münasibət onun çıxışlarında açıq şəkildə özünü büruzə vermişdir. V.Solovyovun Ermənistan-Azərbaycan münaqişəsi, 44 günlük Vətən müharibəsi, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi ilə bağlı müxtəlif vaxtlarda etdiyi çıxışlar həmişə qeyri-obyektiv olmuş, ziddiyyətli mahiyyət daşımış və Azərbaycanda adekvat reaksiyalara səbəb olmuşdur.

Rusiyanın dövlət televiziya kanalının efirində belə destruktiv iddiaların yer alması narahatlıq doğurur, xalqımıza qarşı qəbuledilməz hesab edilir, ölkələrimiz arasında dostluq münasibətlərinin ruhuna və məsələ ilə əlaqədar Rusiyanın rəsmi mövqeyinə tamamilə ziddir. Jurnalist etikası və əxlaqi dəyərlərlə bir araya sığmayan bu nifrət nitqini yolverilməz hesab edir, qəti şəkildə pisləyir və qarşı tərəfin üzrxahlıq etməsini gözləyirik", - açıqlamada qeyd olunub.

### Simonyan və Solovyov eyni bezin qırağıdılar

Erməni lobbisinin əlində alətə çevrilən V.Solovyov və erməni əsilli Rusiya jurnalisti və televiziya aparıcısı Marqarita Simonyan jurnalist prinsiplərinə, peşə-etika qaydalarına əməl etməkdən uzaqdılar. Çünki onlar idarə olunan "jurnalist"lər hesab olunurlar. Hətta dövlət səviyyəsində onların təxribatçı fəaliyyətləri maliyyəşdirilir. "Delfi Estonia" nəşri Vladimir Putin Administrasiyasından əldə etdiyi sənədə görə 2023 və 2024-cü illərdə Rusiya hakimiyyəti teleaparıcı Vladimir Solovyova hər il 1,5 milyard rubl, yəni 16 milyon 340 min dollar pul ayırıb. Əldə olunan sənədlə bağlı nəşr yazır ki, Solovyova ayrılan maliyyə vəsaiti üç kateqoriyaya bölünüb və bunun üçün 110 milyard rubl ayrılıb: prezident seçkisi, informasiya və ideoloji müharibə və yeni regionlar.

Rusiya dövləti və erməni lobbisi tərəfindən ayrılan vəsaitlərin qarşılığında V.Solovyov hər cür vicdansızlıqlar etməkdən çəkinmir. O, üzərinə qoyulan vəzifələrə uyğun olaraq erməni maraqlarından çıxış etmək üçün dəridən qabıqdan çıxır. Çalışır ki, Ermənistandakı tarixin arxivinə göndərilən revanşistlər yenidən başlarını qaldırıb ətrafa boylansınlar. Həm də ümid edir ki, Paşinyanın devrilməsi ilə yenidən İrəvanda Azərbaycana qarşı müharibə ovqatı yarana bilər. Ancaq bu məxluq anlamır ki, artıq ötən əsrin 90-cı illəri deyil, bu gün dünyanın aparıcı dövlətləri ilə bir sırada dayanan güclü və qüdrətli Azərbaycan dövləti mövcuddur. Əgər Paşinyan zibilliyə göndərilib, yeni qüvvələr Ermənistanda hakimiyyətə gəlsələr və ölkəmizə qarşı təxribatlara cəhd edərlərsə, o zaman Zəngəzuru, ümumilikdə isə oyuncaq dövlətlərini itirə bilərlər.

**İLHAM ƏLİYEV**



FELYETON

# Başsız atlı...

İşə gəlirəm, metrodayam, eskalatorla aşağı enirəm. Baxıram ey, qarşımda iki nəfər dayanıb, amma bunlardan birinin başı yoxdur. Maraq məni götürür. Hanı bunun başı? İşə düşmədik? Çantamı açıram, eynəyimi çıxarıram, sonra eynək siləni çıxarıram, eynəyi silirəm, qoyuram gözümə, baxıram ki, hə, qarşıda iki adam var, birinin başı o birinin sinəsindədir...

***

Axşamçağı işdən çıxıb gedirəm evə tərəf. Baxıram ki, qarşıda, parkın yanında, ağacın altında iki nəfər dayanıb. Yenə bunlardan birinin başı yoxdur. Bismillahirrəhmanir-rəhim, niyə bu başsız adamlar mənim gözümə görünür? Əcəba, içimə cin-şeytan giribmi? "Allah, özün kömək ol",- deyirəm və başlayıram "Ayətül-kürsü" oxumağa. Yaxınlaşanda görürəm ki, yox, cin-şeytan, film məsələsi deyil, həqiqətən də burada iki nəfər dayanıb, sadəcə birinin başı o birinin qoynundadır, mən görməmişəm...

***

Hərdən yazı yazmaqdan ta başım xarab olur. Xarab olmasın, nə etsin axı. 30 ildir, yazıram. Mətləbə gəlim, hə, deyirəm buradan keçim dənizkənarı parka, bir az hava vursun məni, beynim açılsın. Gedirəm, baxıram ki, sahilboyu adamlar oturub dənizə tamaşa edirlər. Kor deyiləm, uzaqdan olsa da, aradabir görürəm ki, orda-burda iki nəfər əyləşib, amma bəs bunların başı birdir axı. Yaxınlaşıram, görürəm ki, doğru görürmüşəm, burada əyləşən iki nəfərdir, lakin o birinin başı bu birinin qucağındadır.

Burada başsız adamları xeyli görürəm. O başda, bu başda, sahildə, skamyalarda, ağacların altında. Gördükcə də başlarının olduğunu, amma bu başların hərəsinin bir yerdə dayandığını da görürəm.

***

O günləri də marşrut avtobusdayam. Arxada oturmuşam. Gördüm qarşı tərəfdə bir yer boşalıb, qalxdım, gəldim ki, orada rahat əyləşim. Gələndə nə görsəm yaxşıdır, yer boş deyil, doludur. Mən arxadan görə bilməmişəm, çünki başlardan biri yenə yox idi. Yanındakının çiynində imiş. Mən qayıdıb yerimdə oturanadək biri də gəlib əyləşib yerimdə. Dedim, lənət sənə kor şeytan...

***

Keçən həftə də küçə ilə gedirəm. Qarşıda məndən bir az aralıda yenə də təxmin edirəm ki, bir nəfər deyil, iki nəfər gedir. Kor deyiləm, yaxınlaşdıqca, baxıram ki, axı bunun birinin başı yoxdur. Bir az da yaxınlaşıb yanlarından keçəndə görürəm ki, varmış, amma o birinin sinəsindəymiş. Deyirəm, bu vəziyyətdə necə də yeriyə bilirlər bu bəxtəvərlər...

Nə isə, "Başsız atlı" filminə yeniyetmə olarkən baxmışdım. Film məndə böyük travma yaratmışdı. Deyirəm, bəlkə bu səbəbdəndir ki, iki bədəni bir baş görəndə çox insandan fərqli qarşılayıram. Yoxsa, deyə bilərsiniz ki, burada nə var ki?..

**Mətanət Məmmədova**

# Qəbul imtahanları: maksimal balın əhəmiyyəti varmı?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması " istiqaməti çərçivəsində hazırlanıb*

***Ötən gün Dövlət İmtahan Mərkəzi I və IV ixtisas qrupları (o cümlədən III qrup üzrə DT və TC altqruplarının hər ikisini seçənlər üçün coğrafiya fənni) üzrə 1 iyun 2025-ci il tarixində keçirilmiş qəbul imtahanının nəticəsini elan etdi. İmtahanda iştirak edən abituriyentlər nəticələri, cavab kartı və cavab vərəqinin qrafik təsvirləri, həmçinin hər bir açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları (tapşırığın ehtimal olunan doğru cavabları, həlli və qiymətləndirmə şkalası) ilə https://eservices.dim.gov.az/2025/netbak/ linkində tanış oldular.***



Verilən məlumata görə, imtahanda iştirak etmək üçün ərizəsini təsdiq etmiş 37693 abituriyentdən (I qrup üzrə 31167 nəfər, IV qrup üzrə 6526 nəfər) 1551 nəfər (I qrup üzrə 1379 nəfər, IV qrup üzrə 172 nəfər) imtahanda iştirak etməyib. İmtahanda iştirak edən abituriyentlərdən 7 nəfər qaydaları pozduqlarına görə imtahandan xaric olunub və nəticələri ləğv edilib. III qrup üzrə DT və TC altqruplarının hər ikisini seçən 7986 abituriyentdən 954 nəfər coğrafiya fənni üzrə imtahana gəlməyib.

Bu imtahanda I ixtisas qrupu üzrə ən yüksək nəticəni (400 bal) 2 nəfər - Neftçala rayonu Bankə qəsəbə 2 saylı orta məktəbin məzunu Əliyev Mirağa İxtiyar oğlu və Gəncə şəhər 13 saylı orta məktəbin məzunu İsmayılov Alı Vəfadar oğlu göstərib. İsmayılov Alı Vəfadar oğlu hər iki mərhələnin cəminə görə I ixtisas qrupu üzrə ən yüksək nəticəni (697.5 bal) göstərən abituriyentdir. O, imtahanın birinci mərhələsində 297.5 bal toplayıb.

Bu imtahanda IV ixtisas qrupu üzrə ən yüksək nəticəni (400 bal) 5 nəfər - Sumqayıt şəhər Texniki və Təbiət Elmləri Liseyinin məzunu Əliyeva Fidan Ayaz qızı, Mingəçevir şəhər 11 saylı orta məktəbin məzunu Hüseynli Arif Pərviz oğlu, Xaçmaz rayon 8 saylı şəhər orta məktəbinin məzunu Əliyeva Ləman Vasif qızı, Bakı şəhər 129 saylı orta məktəbin məzunu Babayev Anar Qurban oğlu, Bakı şəhər 220 saylı məktəb-liseyin məzunu Xəlilova Aylin Rauf qızı göstərib. Xəlilova Aylin Rauf qızı hər iki mərhələnin cəminə görə IV ixtisas qrupu üzrə ən yüksək nəticəni (697.5 bal) göstərən abituriyentdir. O, imtahanın birinci mərhələsində 297.5 bal toplayıb.

Xatırladaq ki, imtahanın I mərhələsində maksimal olaraq 300, II mərhələsində isə 400 bal toplamaq mümkündür. Müsabiqə hər iki mərhələdə toplanılan balların cəminə görə aparılır. İmtahan nəticələri ilə bağlı müraciətlərə baxılması üçün DİM-də Apellyasiya Komissiyası fəaliyyət göstərəcək. Apellyasiya Komissiyasına müraciət etmək istəyənlər 21 iyun saat 10:00-dan 23 iyun saat 17:00-dək DİM-in saytında yerləşdiriləcək elektron ərizəni doldurmaqla qeydiyyatdan keçə bilərlər. Göstərilən müddət ərzində qeydiyyatdan keçməyənlər sonradan Apellyasiya Komissiyasına müraciət edə bilməyəcəklər. Elektron ərizədə haqqında müraciət edilən tapşırığın nömrəsi seçilməli, onunla bağlı müraciətin məzmunu yazılmalı və meyarın hansı bəndinə uyğun hesab edildiyi göstərilməlidir. Elektron ərizədə müraciətin məzmunu qeyd olunmadığı halda ərizə qəbul edilmir və həmin müraciət araşdırılmır. Apellyasiya prosesi aşağıdakı ardıcıllıqla aparılır:

Apellyasiya Komissiyası tərəfindən haqqında müraciət olunan bütün işlər araşdırılır, abituriyentlərin müraciət etdikləri tapşırıqlar üzrə ekspert rəyi (yazılı şəkildə) apellyasiya ərizələrinə əlavə edilir, abituriyentlərin apellyasiya ərizələrində qeyd etdikləri telefon nömrəsinə apellyasiya prosesinin başa çatması ilə bağlı "sms" göndərilir. Bundan sonra abituriyentlər apelyasiya.dim.gov.az saytında ərizələrinə daxil olaraq apellyasiyanın nəticəsi ilə tanış ola və ekspert rəyini oradan çap edə bilərlər.

Cavab kartında (vərəqində) təlimata uyğun olmayan formada qeyd olunmuş cavablar, o cümlədən cavabın optik qurğu tərəfindən səhv kimi nəzərə alınması ilə nəticələnən düzəlişlərlə (məsələn qapalı sualda iki dairənin qaralanması və s.) bağlı müraciətlərə baxılmayacaq.

Apellyasiya Komissiyasına müraciət etməmişdən əvvəl abituriyentlər DİM-in saytında, imtahan nəticələri ilə bağlı səhifədə öz nəticələri, cavab vərəqinin qrafik təsviri, hər bir açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları ilə tanış ola bilərlər.

Ötən imtahanların təcrübəsi göstərir ki, apellyasiya üçün ərizə yazanların təqribən 15%-i ümumiyyətlə tapşırığa cavab verməyib və ya öz cavabı ilə mümkün doğru cavabları, qiymətləndirmə şkalasını müqayisə edib tanış olmadan komissiyaya müraciət ediblər. Abituriyentlərin nəzərinə çatdırırıq ki, bu tip müraciətlərə baxılmayacaq.





| Ali təhsil müəssisələrinə qəbul imtahanının keçirildiyi il | "700 bal" toplayan abituriyentlərin sayı |
|---|---|
| 1992-2006 | 0 |
| 2007 | 3 |
| 2008 | 6 |
| 2009 | 2 |
| 2010 | 7 |
| 2011 | 4 |
| 2012 | 5 |
| 2013 | 6 |
| 2014 | 9 |
| 2015 | 15 |
| 2016 | 10 |
| 2017 | 15 |
| 2018 | 29 |
| 2019 | 0 |
| 2020 | 2 |
| 2021 | 0 |
| 2022 | 1 |
| 2023 | 0 |
| 2024 | 2 |
| Cəmi | 116 |

Vüsət Əzizov

Məlumat üçün qeyd edək ki, Dövlət İmtahan Mərkəzi təxminən 2 həftə əvvəl II və III ixtisas qrupları üzrə 25 may 2025-ci il tarixində keçirilmiş qəbul imtahanının nəticəsi də elan edilmişdi. İmtahanda iştirak etmək üçün ərizə təsdiq etmiş 54246 abituriyentdən (II qrup üzrə 25960 nəfər, III qrup üzrə 28286 nəfər) 2018 nəfər (II qrup üzrə 1296 nəfər, III qrup üzrə 722 nəfər) imtahanda iştirak etməmişdi. İmtahanda iştirak edən abituriyentlərdən 13 nəfər qaydaları pozduqlarına görə imtahandan xaric olunaraq nəticələri ləğv edilmişdi.

Həmin imtahanda II ixtisas qrupu üzrə ən yüksək nəticəni 391.7 bal toplayan Ucar rayonu 2 saylı şəhər tam orta məktəbinin məzunu Cənnətov Fuad Əlikram oğlu göstərmişdi. O, imtahanın birinci mərhələsində 282.3 bal toplayıb. Hər iki mərhələnin cəminə görə II ixtisas qrupu üzrə ən yüksək nəticəni isə 680.0 bal toplayan Bakı Türk Liseyinin (Türkiyə Dəyanət Vəqfi) məzunu İsmayılzadə Xədicə Xaliq qızı göstərib. O, imtahanın birinci mərhələsində 300, ikinci mərhələsində isə 380.0 bal toplayıb.

Bu imtahanda III ixtisas qrupu üzrə ən yüksək nəticəni 400 bal toplayan 2 nəfər - Qax rayonu 2 saylı şəhər tam orta məktəbinin məzunu Hümmətli Çiçək Hümmət qızı və Qazax rayonu 1 saylı şəhər tam orta məktəbinin məzunu İbrahimov Əli Ruslan oğlu göstərib. Hümmətli Çiçək Hümmət qızı imtahanın birinci mərhələsində 297.5 bal toplayıb. O, hər iki mərhələnin cəminə görə III ixtisas qrupu üzrə 697.5 bal toplamaqla ən yüksək nəticəni göstərən abituriyentdir. İbrahimov Əli imtahanın birinci mərhələsində 290 bal toplayıb.

Qeyd edək ki, bu ilki qəbul imtahanlarında maksimal balı (700) toplayan şagird olmadı. 1000-dən çox abutiriyent isə 600-dən yuxarı bal toplayıb. Ötən il 7 abituriyent 700 bal toplamışdı. I ixtisas qrupu üzrə 5 nəfər, IV ixtisas qrupu üzrə 2 nəfər maksimum nəticə - 700 bala nəticə göstərmişdi.

Bu il 3-cü qruplar üzrə balların artacağı barədə məlumatlar da var. Bu barədə bir müddət əvvəl Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Mələykə Abbaszadə açıqlama vermişdi. Onun sözlərinə görə, II ixtisas qrupunda bu vəziyyət müşahidə edilmir: "I və IV ixtisas qrupunda da düşünürük ki, ballar ötənilki səviyyədə olsun. Ümumilikdə, ərizə verənlərin sayından yox, bütün imtahan nəticələrindən sonra müqayisə edilə bilər ki, müsabiqəyə kim buraxılsın. Müsabiqəyə buraxılanlar isə yalnız 200 baldan, ya da müəyyən istiqamətlər üzrə 150 baldan yuxarı nəticə göstərən şəxslərdir".

Təhsil eksperi Ramin Nurəliyev Dövlət İmtahan Mərkəzinin direktorlar şurasının sədri Mələykə Abbaszadənin dediklərinə münasibət bildirərkən deyir ki, keçən il balların artmasına səbəb buraxılış imtahanının suallarının əvvəlki illərlə müqayisədə asan olması idi: "Blok imtahanları da çətin olmadı. Nəticə etibarilə əvvəlki illərə nisbətdə ortalama qruplara görə 30-80 bal artım müşahidə olundu. Bu qəbul ilində isə hələ ki, yəni buraxılış və blok imtahanının birinci cəhdini analiz edəriksə, rahatlıqla qeyd edə bilərik ki, buraxılış imtahanı keçən ilki buraxılış imtahanından asan deyildi. Eləcə də, blok imtahanı tarix fənnini nəzərə alarıqsa keçən ilkinə nisbətdə çətin idi. Əgər suallar çətin olarsa ballar düşür, asan olarsa, ballar qalxır. İndi belə bir sual formalaşır: dəyərli DİM sədri niyə belə bir fikir bildirib? Axı suallar çətin olub deyilir. Çətin olan suallara görə ballar qalxmamalıdır, əksinə düşməlidir. Deməli ki, DİM sədri ikinci cəhd imtahanının asan olacağı siqnallarını verir. Əgər həqiqətən də 3-cu qrupda ballar xanımın dediyi kimdirsə, yəni 3-5 bal artacaqsa, deməli ki, ikinci cəhddə suallar birinciyə nisbətən asan olacaq. Ehtimalıma görə, belə bir vəziyyət birinci cəhdin nəticəsinə görə mümkünsüzdür".

**Lalə Mehralı**

SON SƏHİFƏ
SƏS
20 iyun
2025-ci il

# Bölgədəki müharibə ölkəmizin əmlak bazarına necə təsir edə bilər?

*EKSPERT FİKRİ*





"Cərəyan edən geosiyasi proseslər fonunda son 15-17 ildə İran əleyhinə yönəlmiş təzyiqlər və beynəlxalq sanksiyalar region ölkələrinə müxtəlif formalarda təsir göstərmişdir. Xüsusilə də Qərbin İrana qarşı tətbiq etdiyi iqtisadi və diplomatik təzyiqlər müəyyən sosial və iqtisadi narahatlıqlara səbəb olmuşdur ki, bu da bəzi varlı və yüksək təbəqəyə mənsub şəxslərin ölkəni tərk etməyə can atmasına gətirib çıxarmışdır". Bu sözləri SİA-ya açıqlamasında əmlak üzrə ekspert Elnur Azadov deyib.

Onun sözlərinə görə, İran kifayət qədər böyük və resurslarla zəngin ölkədir: "Buna baxmayaraq, xarici təzyiqlər nəticəsində bir sıra zəngin şəxslər öz kapitallarını və şəxsi təhlükəsizliklərini qorumaq məqsədilə ölkədən çıxmağa çalışmışlar. Lakin bu miqrasiya dalğası genişmiqyaslı olmamış və əksəriyyət yalnız potensial təhlükələrdən ehtiyatlanaraq ehtiyatlı davranmağa üstünlük vermişdir. Azərbaycana gələn bu kateqoriyadan olan şəxslərin sayı isə olduqca məhdud olmuşdur. Statistik göstəricilər göstərir ki, bu proses nəticəsində ölkəyə gələn şəxslərin sayı ümumi miqyasda İrandakı əhalinin və ya potensial miqrantların təxminən 0,5%-dən də az hissəsini təşkil etmişdir. Belə ki, son illər ərzində Azərbaycana gələn və burada müvəqqəti sığınacaq və ya iqtisadi fəaliyyət imkanı axtaran İran vətəndaşlarının sayı təxminən 300-500 nəfər civarındadır".

Ekspert bildirib ki, hazırkı vəziyyəti təhlil edərkən demək olar ki, İran cəmiyyətində bu gərginliyə qarşı əvvəlki illərlə müqayisədə daha az panika müşahidə olunur: "Əvvəllər bu tip hadisələr əsasən şayiə və ehtimal səviyyəsində müzakirə edilirdi. Lakin indi artıq konkret hərbi əməliyyatların aparıldığını görürük. Bununla belə, İran əhalisinin əksəriyyəti bu hadisələrə qarşı gözlənildiyi qədər təşviş içində deyil və geniş miqyaslı miqrasiya əlamətləri müşahidə olunmur.

Azərbaycanın mövcud vəziyyəti və regional sabitliyi fonunda bəzi narahatlıqların səsləndirilməsinə baxmayaraq, düşünmürəm ki, bu prosesin ölkəmizin daşınmaz əmlak sektoruna əhəmiyyətli təsiri olsun. İran vətəndaşlarının bir faizi belə Azərbaycana gəlib burada daşınmaz əmlak alsa belə, bu, bazar üçün ciddi ölçüdə həlledici faktor sayıla bilməz"- deyə o əlavə edib.

***Xeyrənsə Piriyeva***

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## "Barselona"nın prezidenti: "Büdcəmiz ilk dəfə 1 milyard avronu keçəcək"




"Barselona"nın prezidenti Joan Laporta klubun maliyyə vəziyyəti haqda danışıb. QOL.az xəbər verir ki, bu barədə "Mundo Deportivo" məlumat yayıb. Klub rəhbəri Kataloniya təmsilçisinin borclarını azaltmağa çalışdıqlarını deyib:"Biz büdcəmizi gücləndirmək üçün çalışırıq. İqtisadiyyatın bərpası çətinliklərə baxmayaraq həyata keçirdiyimiz strateji plana əsaslanır. Bu mövsüm 980 milyon avro gəlirimiz olacaq. Büdcə ilk dəfə olaraq 1 milyard avronu keçəcək."

# "Gender bərabərliyi və feminizm fərqli mənalara malikdir"



"Gender bərabərliyi dinc, firavan və davamlı dünya üçün çox vacibdir. Bu, qadın və kişilərin hüquq bərabərliyi və bu hüquqların həyata keçirilməsi üçün bərabər imkanlardır, onların cəmiyyətdə bərabər sosial vəziyyəti və yoxsulluğun azaldılması, səhiyyənin, təhsilin inkişafı və hamı üçün rifahın təmin edilməsi üçün əsasdır". Bu sözləri SİA-ya açıqlamasında Qadın və gender məsələləri şöbəsinin aparıcı məsləhətçisi Sədaqət Rəhimova deyib. O bildirib ki, gender bərabərliyi fərdlərə öz potensiallarını tam şəkildə reallaşdırmaq imkanı verir, daha təhlükəsiz və sağlam icmaları inkişaf etdirir, iqtisadi artıma şərait yaradır: "Tez-tez bir-birini əvəz etsə də, gender bərabərliyi və feminizm fərqli mənalara malikdir. Gender bərabərliyi cinsindən asılı olmayaraq hər kəsin resurslara və imkanlara bərabər çıxışın təmin olunmasıdır. Feminizm isə qadınların üzləşdiyi tarixi və sistemli çatışmazlıqların aradan qaldırılmasına diqqət yetirərək, bu bərabərliyə nail olmağı müdafiə edən bir hərəkatdır.

### Gender rolları ailə münasibətlərinə necə təsir edir?




Gender rolları əmək bölgüsünə, valideynlik öhdəliklərinə və evdə ümumi dinamikaya təsir edərək ailə münasibətlərinə əhəmiyyətli dərəcədə təsir göstərir. Ənənəvi gender rolları qeyri-bərabərlik yarada, münaqişə və narazılığa səbəb ola bilər, bərabərliyə daha yaxın yanaşmalar isə daha yaxşı ünsiyyətə və daha güclü münasibətlərə kömək edə bilər."

***Söylü Ağazadə***

## ELAN

10.09.2022 ci il tarixində DSX tərəfindən Əliyev Mirabbas Mirnuh oğluna verilmiş DSX N° 0001248 saylı xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**